DİNİMİZ MİLLİ-MƏNƏVİ SƏRVƏTİMİZDİR. Heydər Əliyev

www.scwra.gov.az

# CƏMİYYƏT və DİN

TƏSİSÇİ: Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi

№ 04 (345) / İYUL 2020-Cİ İL



Müsəlman məscidlərini dağıdan Ermənistanla hansı əlaqələr ola bilər? Açın baxın internetdə, görün Ağdam məscidi nə gündədir, Şuşa məscidi nə gündədir, digər şəhərlərdəki məscidlər nə gündədir, onları söküblər. Bu azmış kimi, ermənilər orada heyvan saxlayırlar, hətta bizim müqəddəs ocaqlarımızı təhqir edirlər. Kim edir bunu? Ermənistan. Bu məscidlər təkcə bizim deyil, bütün müsəlman aləminə məxsusdur. Mən sual verirəm, necə ola bilər ki, belə çirkin əməllər törədən bir ölkə ilə hansısa əlaqələr olsun, hansısa dostluq haqqında danışsınlar? Hansı dostluq ola bilər? Ona görə, mən bir daha demək istəyirəm, Ermənistan çalışır ki, onları öz tərəfinə çəksin. Ancaq, ilk növbədə, o ölkələrin xalqları buna imkan verməyəcəklər və verməməlidirlər. Əgər görsələr ki, bu ölkələrin hakimiyyəti öz dini mənsubiyyətini ancaq dildə ifadə edir, o ölkələrin vətəndaşları öz sözünü deməlidir, Azərbaycanla həmrəy olmalıdır. Necə ki, biz bütün müsəlman ölkələri ilə həmrəyik, onlardan da eyni münasibət gözləyirik. Xüsusilə belə həssas günlərdə, həssas məsələdə ki, Ermənistan bizə hücum edib, bizim mövqelərimizi zəbt etmək istəyir, bizim hərbçilərimizi, mülki vətəndaşları öldürüb, kəndlərimizi dağıdıb. Mən dünən Sərəncam imzaladım, Tovuz rayonunda zərər çəkmiş bütün binalar, – indi komissiya təşkil olunub, - inventarlaşdırılacaq və qısa müddət ərzində biz bütün evləri bərpa edəcəyik. Amma insanların həyatını bərpa etmək olarmı? 76 yaşlı ağsaqqalın həyatını bərpa etmək olarmı? Bunu kim edib? Ermənistan edib. Əfsuslar olsun ki, özünü bizə dost kimi təqdim etmək istəyən bəzi ölkələr onlara bu mərmiləri veriblər ki, Azərbaycan əsgərini, Azərbaycan vətəndaşını, uşağı, qocanı Xocalıdakı kimi öldürsünlər. O vaxt bizim gücümüz yox idi. Bizim deyəndə, əvvəlki iqtidarın, hansı ki, bu faciə vaxtı Azərbaycana rəhbərlik edirdi. Açıq danışmalıyıq, bu, belədir. Azərbaycan xalqı, Azərbaycan vətəndaşları hər şeyi bilməlidir. Ona görə İslam Əməkdaşlıq Təşkilatının bu qərarını biz çox yüksək qiymətləndiririk. Qoşulmama Hərəkatı da, - burada 120 ölkə cəmləşir, - birmənalı şəkildə Azərbaycanı dəstəklədi.

... biz Ermənistana başından güclü zərbə vurandan sonra onlar dərhal Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) qaçdılar ki, bunları müdafiə etsin. Tələb edirdilər ki, KTMT Azərbaycanı qınayan bəyanat versin. Buna nail ola bilmədilər, heç bir bəyanat verilmədi. Sadəcə olaraq, bu hadisə ilə bağlı ümumi sözlərdən ibarət bir şərh verildi, vəssalam. Ancaq bildirməliyəm ki, KTMT-ya 6 ölkə üzvdür. Onlardan üçü beynəlxalq təşkilatlar yolu ilə Azərbaycana dəstək göstərdilər. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasında, eyni zamanda, KTMT-da üzv olan Qazaxıstan və Qırğızıstan Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası vasitəsilə bizə dəstək oldular. Belarus Qoşulmama Hərəkatında təmsil olunur. O da Qoşulmama Hərəkatının bəyanatına qoşularaq bizə dəstək oldu. Yəni, altı ölkədən üçü Azərbaycanı birmənalı şəkildə dəstəklədi və başqa cür ola bilməzdi. Çünki biz onlarla dostuq, yaxşı günlərdə, çətin günlərdə onlar bizə etibar edə bilərlər. Bu, bir. İkincisi, qoy Ermənistanın qorxaq rəhbərliyi yadına salsın ki, qaçıb yardım almaq istədiyi KTMT-nı necə təhqir etmişdi, heç bir başqa ölkə ilə razılaşma aparmadan onun baş katibini həbs eləmişdi. Belarus nümayəndəsinin KTMT-ya yeni baş katib təyin olunmasının əleyhinə çıxmışdı. Bir il ona imkan vermədi ki, işə başlasın. Bəs nə oldu, o vaxt KTMT pis idi, sən onu təhqir edirdin, indi qaçıb onun ətəyindən yapışırsan. Gəl bizimlə təkbətək vuruş, təkbətək, baxaq görək bunun axırı nə olacaq.

**Prezident İlham Əliyev**

Bakıda şəhid ailələrinə, müharibə əlillərinə mənzillərin və avtomobillərin təqdim olunması mərasimindəki nitqindən

21 iyul 2020

“DİNİ TOLERANTLIQ DÖVLƏTİN VƏ CƏMİYYƏTİN İNKİŞAFINDA VACİB AMİLDİR” MÖVZUSUNDA BEYNƏLXALQ VİDEOKONFRANS KEÇİRİLİB



Səh. 3

DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ YANINDA İCTİMAİ ŞURANIN SEÇKİ KOMİSSİYASININ GÖRÜŞÜ KEÇİRİLİB



Səh. 6

Amil Cavadov: Birgəyaşayış bizim qürur duyduğumuz sərvətimizdir



Səh. 4

TOVUZDAN BAŞLAYAN TƏXRİBATLAR VƏ YA ERMƏNİ VƏHŞİLİYİNİN KÖHNƏ-YENİ FORMASI



Səh. 10

## "Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi işçilərinin say həddinin müəyyən olunması və Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 noyabr tarixli 376 nömrəli Fərmanında dəyişiklik edilməsi haqqında

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. "Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi işçilərinin say həddinin müəyyən olunması və Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"də dəyişikliklər edilməsi barədə" Azərbaycan Respublikası Prezidentinin 2014-cü il 25 noyabr tarixli 376 nömrəli Fərmanının (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2014, № 11, maddə 1416) 1-ci hissəsində "85" rəqəmləri "88" rəqəmləri ilə, "89" rəqəmləri "91" rəqəmləri ilə əvəz edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 17 iyul 2020-ci il.

## Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"də dəyişiklik edilməsi barədə

## Azərbaycan Respublikası Prezidentinin Fərmanı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 32-ci bəndini rəhbər tutaraq qərara alıram:

1. Azərbaycan Respublikası Prezidentinin 2001-ci il 20 iyul tarixli 544 nömrəli Fərmanı (Azərbaycan Respublikasının Qanunvericilik Toplusu, 2001, № 7, maddə 481; 2005, № 5, maddə 403; 2008, № 3, maddə 175, № 11, maddə 970; 2009, № 7, maddə 533, № 11, maddə 881, № 12, maddə 983; 2011, № 2, maddə 85, № 12, maddə 1138; 2012, № 11, maddə 1110; 2013, № 2, maddə 113; 2014, № 4, maddə 367, № 11, maddə 1416; 2018, № 2, maddə 190) ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi haqqında Əsasnamə"nin 10.3-cü bəndinin birinci cümləsində "üç" sözü "dörd" sözü ilə əvəz edilsin.
2. Azərbaycan Respublikasının Nazirlər Kabineti bu Fərmandan irəli gələn məsələləri həll etsin.

**İlham Əliyev**
Azərbaycan Respublikasının Prezidenti
Bakı şəhəri, 17 iyul 2020-ci il.

# "DİNİ TOLERANTLIQ DÖVLƏTİN VƏ CƏMİYYƏTİN İNKİŞAFINDA VACİB AMİLDİR" MÖVZUSUNDA BEYNƏLXALQ VİDEOKONFRANS KEÇİRİLİB

İyulun 24-də Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Özbəkistan Respublikasının Nazirlər Kabineti yanında Dini Məsələlər üzrə Dövlət Komitəsinin birgə təşkilatçılığı ilə "Dini tolerantlıq dövlətin və cəmiyyətin inkişafında vacib amildir" mövzusunda beynəlxalq videokonfrans keçirilib.

Videokonfransda hər iki ölkədən 40-a yaxın alim, deputatlar, din xadimi, ali təhsil müəssisələrinin rəhbərləri iştirak ediblər.

Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadə çıxış edərək bu gün müstəqil Azərbaycanın və Özbəkistanın ən böyük nailiyyəti qardaş xalqların öz milli və dini dəyərlərini qoruması və bərpa etməsi olduğunu vurğulayıb. Qeyd edib ki, dünyada baş verən terrorizm, radikalizm, islamofobiya hallarına qarşı mübarizədə Özbəkistan Azərbaycanın İslami birlik çağırışını dəstəkləyir, sülh və demokratiya yolunda bərabər addımlar atılır. Bizim məqsədimiz Azərbaycan və Özbəkistan arasında tarixən formalaşmış və İslam Həmrəyliyi çağırışı ilə yeni mərhələyə daxil olmuş münasibətlərin inkişafıdır. Çünki biz həmişə eyni etnik köklərə malik, tarixi və mentaliteti bir-birinə bənzəyən qardaş xalqlar olmuşuq və bu gün də çox məmnunuq ki, iki dost liderlər – Prezident Şavkat Mirziyoyev və Prezident İlham Əliyev Özbəkistan-Azərbaycan münasibətlərinin inkişafına, qarşılıqlı əlaqələrin möhkəmlənməsinə yardım edirlər. Biz fəxrlə təşəkkür edirik ki, Prezident Şavkat Mirziyoyev və özbək xalqı hər zaman Azərbaycanın dostu olduğunu bəyan edir, bizim üçün önəm daşıyan Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi probleminə münasibətdə Özbəkistan dövləti öz prinsipial mövqeyini və dəstəyini nümayiş etdirir. Təəssüflə qeyd etməliyəm ki, son günlərdə sərhəd bölgəmiz olan Tovuzda növbəti dəfə Ermənistan tərəfinin təxribatları nəticəsində atəşkəs pozulub, zabitlərimiz və əsgərlərimiz şəhid olmuş, mülki əhali arasında insan tələfatı baş verib, dini-mədəni abidələrimizə zərər dəyib. Biz baş verənlərlə əlaqədar beynəlxalq təşkilatlara, dini liderlərə və dünya ictimaiyyətinə rəsmi müraciətlər etmişik. Ümidvarıq ki, hər zaman olduğu kimi qardaş Özbəkistan dövləti hərbi münaqişələrin beynəlxalq sülh prinsipləri əsasında həllinin tərəfdarı olacaq, Azərbaycanın ərazi bütövlüyünün tanınmasına dair öz dəyişməz mövqeyini və dəstəyini yenə də davam etdirəcək. Bizim birliyimiz, tarixin sınaqlarından keçmiş nailiyyətimiz, qardaşlıq salnaməmizdir.

Şeyxülislam belə bir aktual mövzuda videokonfransın keçirilməsinin əhəmiyyətini qeyd edərək konfransda hər iki ölkənin elmi, dini və siyasi ictimaiyyəti üçün tarixi əhəmiyyət kəsb edən birgə memorandumun qəbul edilməsinə xeyir-dua verib, konfransın işinə uğurlar arzulayıb.

Özbəkistan Respublikasının Nazirlər Kabineti yanında Dini Məsələlər üzrə Dövlət Komitəsinin sədri Abduqafar Axmedov çıxış edərək bu videokonfransın Azərbaycan ilə Özbəkistan arasında mənəvi-maarifçilik sahəsində əməkdaşlığın gücləndirilməsi istiqamətində növbəti vacib addım olacağını bildirib. Qeyd edib ki, müstəqilliyin elan olunması və Özbəkistan hökumətinin demokratiya ideallarına sadiqliyi, cəmiyyətin inkişafı üçün dünyəvi yolun seçilməsi tədricən ölkədə bütün din və konfessiyalar üçün bərabərhüquqlu şərait yaratmağa imkan verdi.

A.Axmedov qeyd edib ki, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin təşəbbüsü ilə 2017-2021-ci illərdə ölkənin inkişafının beş prioritet istiqaməti ilə qəbul edilmiş Fəaliyyət Strategiyası çərçivəsində ölkənin həyatına dəstək olan bütün sahələrdə dəyişikliklər fəal şəkildə davam etdirilir. Dini sahədə bu iş dövlət orqanları və vətəndaş cəmiyyəti institutları tərəfindən həyata keçirilir və dinlərarası dialoq dini plüralizmin, tolerantlığın gücləndirilməsinə yönəldilib.

Eyni zamanda, birgə işlərin mühüm nəticələrindən biri 2018-ci ilin dekabr ayında BMT Baş Assambleyası tərəfindən "Maarifləndirmə və Dini Dözümlülük" adlı xüsusi qətnamənin qəbul edilməsidir. Qətnamənin qəbul edilməsi Özbəkistan Respublikası Prezidentinin BMT Baş Assambleyasının 72-ci sessiyasında irəli sürülən təşəbbüsünün əməli icrası idi. Qətnamənin əsas məqsədi "təhsilin hamıya açıq olmasını təmin etmək, savadsızlığı və cəhaləti aradan qaldırmaqdır". Sənəd "dözümlülük və qarşılıqlı hörmətin bərqərar olmasına, dini etiqad azadlığının təmin olunmasına, dindarların hüquqlarının qorunmasına və ayrı-seçkilik hallarının qarşısının alınmasına" çağırılıb.

Dövlət Komitəsinin sədri son illərdə ölkədə ciddi dəyişikliklər baş verdiyini, bir çox sahələrdə, o cümlədən dini və təhsil sahəsində genişmiqyaslı islahatların həyata keçirildiyini konfrans iştirakçılarının diqqətinə çatdırıb. Bildirib ki, Özbəkistan Konstitusiyanın normalarını təmin etmək üçün bütün zəruri tədbirləri görür: vətəndaşların hüquq və azadlıqlarının qorunması, irqindən, cinsindən, millətindən, dilindən, sosial mənşəyindən, dini etiqadından asılı olmayaraq vətəndaşların hüquq və azadlıqlarının qorunması, qanun qarşısında bərabərliyi təmin olunur. Ümumiyyətlə, qeyd etmək lazımdır ki, müasir Özbəkistanın dini həyatının mühüm fərqləndirici xüsusiyyəti digər dinlərə münasibətdə bir din üçün üstünlük və ya məhdudiyyətin qoyulmasının yolverilməz olmasıdır.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı çıxışında Özbəkistan ilə Azərbaycan arasında tarixi kökləri olan dostluq münasibətlərinə toxunub, ikitərəfli və beynəlxalq təşkilatlar çərçivəsində əlaqələrindən

davamı səh. 3

# “DİNİ TOLERANTLIQ DÖVLƏTİN VƏ CƏMİYYƏTİN İNKİŞAFINDA VACİB AMİLDİR” MÖVZUSUNDA BEYNƏLXALQ VİDEOKONFRANS KEÇİRİLİB

əvvəli səh. 2

danışıb. Qeyd edib ki, ölkələrimiz arasında münasibətlərin əsası ulu öndər Heydər Əliyev tərəfindən qoyulub və bu gün dövlətimizin başçısı tərəfindən uğurla davam etdirilir. Komitə sədri Azərbaycan Prezidenti İlham Əliyevin Özbəkistana rəsmi səfərini, eyni zamanda, Özbəkistan Respublikasının Prezidenti Şavkat Mirziyoyevin 2019-cu







il oktyabrın 14-də Azərbaycana etdiyi səfəri, burada Azərbaycan Prezidenti ilə görüşdüyünü və Türk Şurasının iclasında iştirak etdiyini xatırladıb.

Bildirilib ki, müstəqillik qazandıqdan sonra ölkələrimiz arasında çoxsaylı dövlətlərarası müqavilələr, münasibətlərimizi tənzimləyən sənədlər imzalanıb. Komitə sədri vurğulayıb ki, müasir Azərbaycan dünyəvi dövlətdir və ölkənin Konstitusiyası din və vicdan azadlığını tam təmin edir. Azərbaycan çoxmillətli və çox konfessiyalı ölkədir. Bu xüsusiyyət insanların dini inanclarına və tolerantlığın tarixi formalaşmasına əhəmiyyətli dərəcədə təsir göstərib. Eyni zamanda, ölkəmizdə dinə yüksək səviyyədə dövlət qayğısı var və bu qayğı bütün konfessiyaları əhatə edir. Dövlətin qayğısı ibadət evlərinin təmiri, bərpası və əsaslı şəkildə qurulması, yenilərinin tikilməsi istiqamətində həyata keçirilir. 2016-cı ilin ölkəmizdə “Multikulturalizm İli”, 2017-ci ilin isə “İslam Həmrəyliyi İli” elan olunmasının təsadüfi olmadığına diqqət çəkən Komitə sədri bununla bağlı ölkəmizdə və xaricdə çoxsaylı tədbirlərin keçirildiyini deyib. Eyni zamanda, IV İslam Həmrəyliyi Oyunlarının Azərbaycanda keçirilməsini İslam dünyasını bir araya gətirən, birləşdirən humanitar, siyasi, iqtisadi əlaqələrə təkan verən hadisə kimi qiymətləndirən Mübariz Qurbanlı bildirib ki, İslamda həmrəyliyə böyük ehtiyac var.

O, həmçinin Birinci vitse-prezident Mehriban xanım Əliyevanın rəhbərlik etdiyi Heydər Əliyev Fondunun təkcə Azərbaycanda deyil, bütün dünyada milli-mənəvi dəyərlərin qorunub saxlanılmasına və dini ziyarətgahların yenidən qurulmasına xüsusi diqqət yetirdiyini qeyd edib. Bu da ölkəmizdəki tolerantlıq atmosferinin daha da gücləndirilməsinə mühüm töhfə verir.

Dinlərarası dialoqdan danışan sədr bildirib ki, prosesin yalnız müsbət tərəflərini bildirməklə kifayətlənməməliyik. Münaqişələri dini amillə əlaqələndirmək cəhdlərini də qınamalıyıq. Belə nümunələrdən biri də illərdir davam edən Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsidir. Ermənistanın hərbi təcavüzü nəticəsində torpaqlarımızın 20 faizi - Dağlıq Qarabağ və ona bitişik 7 rayon işğal edilib. Bu ərazilərdə Azərbaycan xalqına qarşı soyqırımı həyata keçirilib, ermənilər bütün tarixi abidələrimizi, məzarlarımızı, o cümlədən məscidlərimizi dağıdıblar. BMT Təhlükəsizlik Şurasının münaqişə ilə əlaqədar olaraq, Ermənistan silahlı qüvvələrinin torpaqlarımızdan çıxarılması ilə bağlı tamamilə açıq müddəaları olan 4 qətnaməsi hələ də yerinə yetirilməyib.

Mübariz Qurbanlı iyulun 12-də Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində təxribata əl atan erməni hərbi birləşmələrinin artilleriya qurğularından istifadə edərək atəşkəsi kobud şəkildə pozduğunu diqqətə çatdırıb. Qeyd edib ki, hücum nəticəsində həm Azərbaycan Ordusunun hərbçiləri, həm də mülki şəxs həlak olub. Bu hadisə Ermənistanın işğalçılıq siyasətinin davamıdır. Azərbaycan ordusunun hərbi qüdrəti, qətiyyəti və cəsarəti sayəsində Ermənistanın məkrli və çirkli təxribatının qarşısı qətiyyətlə alındı.

Mübariz Qurbanlı bugünkü videokonfransda Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi ilə Özbəkistan Nazirlər Kabineti yanında Dini İşlər Komitəsi, həmçinin Azərbaycan İlahiyyat İnstitutu və Özbəkistan Beynəlxalq İslam Akademiyası arasında əməkdaşlıq memorandumları imzalanacağını qeyd edərək konfransın işinə uğurlar arzulayıb.

Özbəkistan Müsəlmanları İdarəsinin sədri müfti Usmonxon Alimov çıxış edərək videokonfransın mövzusunun əhəmiyyətindən danışıb, dini sahədə gələcəkdə hər iki ölkənin müvafiq qurumları arasında təcrübə mübadiləsinin aparılmasının önəmini vurğulayıb. Qeyd edib ki, hazırda bəzi qüvvələr İslam dininə qarşı düşmən münasibət formalaşdırmağa çalışır. Şübhəsiz ki, İslam dininə münasibətdə bu cür yanaşma əsassızdır və bu, İslam dəyərlərinin yanlış dərk edilməsindən irəli gəlir. Çünki İslam dinini dərk etdikcə onun humanizm, tolerantlıq, xoş rəftar, mərhəmət daşıdığının, yüksək əxlaqi dəyərləri təbliğ etdiyinin şahidi oluruq. Buna görə də iki ölkənin din siyasətini həyata keçirən qurumlar arasında əlaqələrin möhkəmləndirilməsi, birgə tədbirlərin keçirilməsi, eləcə də qarşılıqlı maraq kəsb edən digər məsələlər barədə müzakirələrin aparılması günün tələbidir.




Daha sonra Milli Məclisin deputatı, Parlamentin Azərbaycan-Özbəkistan dostluq qrupunun sədri Eldar İbrahimov çıxış edərək bildirib ki, Azərbaycan Respublikası dövlət müstəqilliyini bərpa etdikdən sonra siyasi, iqtisadi və sosial, dini sahədə də çətin və mürəkkəb bir vəziyyət yaranıb. Bu şəraitdə cəmiyyətin sabitliyini və müstəqil Azərbaycan dövlətinin təhlükəsizliyini təmin etmək üçün ölkə parlamenti bir sıra vacib normativ hüquqi aktları qəbul edib. Bu aktlardan biri də "Dini etiqad azadlığı haqqında" Qanundur. Bu Qanun Azərbaycan Respublikasında hər bir insanın dinə münasibətini müəyyənləşdirmək və ifadə etmək, eləcə də bu hüquqdan istifadə etməyə zəmanət verir. Eyni zamanda, dinə dair bir sıra məsələlər Azərbaycan Respublikasının Konstitusiyasında da öz əksini tapmışdır.

O qeyd edib ki, respublikamızda belə mükəmməl bir tolerantlıq mühitinin yaradılması, dini dözümlülüyün İslamın və Azərbaycan xalqının xarakterik xüsusiyyəti və milli-mənəvi sərvətinin olmasına dəlalət edir. Müxtəlif dini konfessiyaların nümayəndələri həmişə Azərbaycan xalqı ilə həmrəylik nümayiş etdirib, Azərbaycan Respublikasının azadlığı və rifahı üçün birgə mübarizə aparıblar. Azərbaycan xalqının dözümlülüyünün bu xarakterik keyfiyyətləri xüsusilə erməni təcavüzü dövründə aydın şəkildə özünü büruzə verdi. Azərbaycanlılarla birlikdə müxtəlif dini konfessiyalara və etnik xalqlara mənsub olan vətəndaşlarımız da Azərbaycanın azadlığı və ərazi bütövlüyü uğrunda canlarını fəda etdilər.

E.İbrahimov qeyd edib ki, 1991-ci ildə ikinci dəfə müstəqillik qazandıqdan sonra ölkəmiz müsəlman dünyası ilə ikitərəfli və çoxtərəfli əməkdaşlıq qurub. Bu kontekstdə dost və qardaş Özbəkistanla qurulan münasibətlər böyük əhəmiyyət daşıyır və Özbəkistan Azərbaycanın strateji müttəfiqləri arasında xüsusi yer tutur. Əvvəlcə qeyd etmək istərdim ki, Azərbaycan və Özbək xalqları arasında tarixən bir çox ortaq dəyərlər inkişaf edib. Xalqlarımız arasında dostluq və anlaşma dərin kök salıb. Bizi linqvistik, dini, mənəvi və bir çox qardaşlıq və dostluq bağları bağlayır. Həyat və iqtisadiyyatın bütün məsələlərində hər zaman bir-birimizi dəstəkləyirik.

Videokonfransın birinci hissəsinin davamında Özbəkistan Respublikası Nazirlər Kabineti yanında Özbəkistanda İslam Sivilizasiyası Mərkəzinin Tədqiqat şöbəsinin müdiri Qulçexra Tulemetova, Özbəkistan Respublikası Ruhani və maarifçilik Mərkəzinin rəhbəri Minxojiddin Xojimatov çıxış edərək din sahəsində dövlət siyasəti istiqamətində təcrübə mübadiləsinin, dini ekstremizmin təzahürlərinin yayılmasının qarşısının alınması istiqamətində maarifləndirmə işlərinin aparılması, tolerantlıq mühitinin qorunub saxlanmasında birgə tədbirlərin keçirilməsi kimi müvafiq istiqamətlər barədə fikirlərini ifadə ediblər.

Beynəlxalq videokonfrans “Cəmiyyətdə dini tolerantlığın və harmoniyanın təmin edilməsi: Özbəkistan və Azərbaycan təcrübəsi”, “Müasir dövlətdə dini dəyərlərin saxlanılması və inkişafı”, “Müasir dövrdə İslam maarifçiliyi” mövzularında panel sessiyalarla davam edib. Milli Məclisin deputatları Cavanşir Paşazadə, Ceyhun Məmmədov, Anar İsgəndərov, QMİ sədrinin birinci müavini müfti Salman Musayev, Azərbaycan İlahiyyat İnstitunun rektoru Aqil Şirinov, Daşkənd İslam İnstitutunun rektoru Uyqun Qafurov, Özbəkistan Müsəlmanları İdarəsi sədrinin birinci müavini Xomijon İşmatbekov, İmam Buxari Beynəlxalq Araşdırma Mərkəzinin direktoru Şovosil Ziyodov və başqaları mövzular ətrafında geniş məruzələrlə çıxış edərək beynəlxalq videokonfransın əhəmiyyətini, qarşılıqlı fikir və təcrübə mübadiləsinin vacibliyini bir daha diqqətə çatdırıblar.

Beynəlxalq videokonfrans zamanı Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Özbəkistan Respublikasının Nazirlər Kabineti yanında Dini Məsələlər Komitəsi arasında əməkdaşlıq haqqında Memorandum, eləcə də Azərbaycan İlahiyyat İnstitutu və Özbəkistan Beynəlxalq İslam Akademiyası arasında Anlaşma Memorandumu imzalanıb.

# ERKƏN NİKAH VƏ QOHUMLAR ARASINDA NİKAHIN MƏNFİ NƏTİCƏLƏRİ MƏSƏLƏSİ MÜZAKİRƏ OLUNUB

İyulun 13-də Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin təşkilatçılığı ilə Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2020-ci il 23 iyun tarixli 213 nömrəli Qərarı ilə təsdiq edilmiş "Gənclər arasında ailənin və nikahın əhəmiyyəti, onun qorunması və möhkəmləndirilməsi məqsədilə erkən nikahın və qohumlar arasında nikahın mənfi nəticələrinə dair maarifləndirmə Qaydası"nın müzakirəsi məqsədilə videokonfrans keçirilib. Onlayn konfransda Qaydalar üzrə fəaliyyəti həyata keçirən aidiyyəti qurumların nümayəndələri iştirak ediblər.



Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin sədri Bahar Muradova konfransa başlamazdan əvvəl Ermənistan silahlı qüvvələrinin bölmələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz istiqamətində mövqelərimizi ələ keçirmək məqsədilə hücuma keçməyə cəhd göstərməsi nəticəsində həlak olmuş şəhidlərimizin ailələrinə başsağlığı verərək, Vətən uğrunda canlarından keçmiş şəhidlərimizin ruhunun bir dəqiqəlik sükutla yad edilməsini təklif edib.

Daha sonra mövzu üzrə çıxışına davam edən B.Muradova erkən nikah və qohumlar arasında nikahın mənfi nəticələrinin aktual ailə problemlərindən olduğunu diqqətə çatdıraraq bildirib ki, erkən nikahların mənfi təsirləri, fəsadları kifayət qədərdir: "Bu, həmin hallarla rastlaşan qızların fiziki, psixoloji və reproduktiv sağlamlığına, sosial həyatına, özünü bir şəxsiyyət kimi ailə və cəmiyyətdə təmsil etməsinə bir sıra problemlər yaradır. Bütün bunlar həyat və sağlamlıq üçün müxtəlif əngəllər törətməklə yanaşı, həmçinin risklər də yaradır. Belə hallar boşanmalara, sağlamlıq imkanı məhdud uşaqların dünyaya gəlməsinə və nəticədə sosial cəhətdən həssas qrupların sayının artmasına səbəb olur. Çünki normal təhsili, peşə bacarıqları olmadığından, öz ailəsi də arxa çıxmadığından özünün gündəlik tələbatlarını reallaşdırmaq bu qadınlar üçün mümkünsüz olur, bəzən də onlar cinayətkar insanların təsiri altına düşə bilirlər".

Komitə sədri erkən nikah halları ilə bağlı statistik rəqəmləri diqqətə çatdıraraq bildirib ki, ayrı-ayrı iqtisadi rayonlar üzrə bu faktları nəzərdən keçirdikdə müəyyən olunub ki, adətən erkən nikahın çox rast gəlindiyi cənub bölgəsi artıq öz "liderliyini" başqa bölgələrə vermişdir: "Qırmızı xəttə daxil olan bölgələr: 1. Aran iqtisadi rayonu üzrə 96 fakt; 2. Dağlıq-Şirvan iqtisadi rayonu üzrə 46 fakt; 3. Bakı şəhəri üzrə 36 fakt; 4. Lənkəran iqtisadi rayonu üzrə 34 fakt müəyyən edilmişdir". O, eyni zamanda, 15-17 yaşlı qadınlar tərəfindən doğulan uşaqların sayını da qeyd edərək, 2011-ci ildə belə qadınlar tərəfindən doğulan uşaqların sayının 4392 olduğu halda, 2018-ci ildə bu rəqəmin 2129, 2019-cu ildə isə 2120 olduğunu vurğulayıb.

B.Muradova "erkən nikah" və "uşaq evliliyi" anlayışlarının normativ-hüquqi sənədlərdə müvafiq dəyərləndirilməsinə ehtiyac olduğunu bildirərək, Davamlı İnkişaf Məqsədlərinin 5-ci bəndində hədəflərdən birinin belə nikahların aradan qaldırılması olduğunu qeyd edib. Komitə sədri qohumlar arasında bağlanan nikahlara da toxunaraq bildirib ki, bu cür nikahlar irsi xəstəliklər başda olmaqla bir çox mənfi fəsadların yaranmasına səbəb olur. Bu kimi problemlərin qarşısını almaq üçün Nazirlər Kabineti tərəfindən təsdiqlənən qaydalar mühüm əhəmiyyət kəsb edir. Sənəd maarifləndirmənin aparılma prinsipləri, vasitələri, istiqamətləri, maarifləndirməni həyata keçirən dövlət qurumlarının dairəsini və onların funksiyalarını müəyyən edir.

Daha sonra Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı erkən nikah və qohumlar arasında baş verən nikah hallarının qarşısının alınması istiqamətində müvafiq dövlət qurumları, qeyri-hökumət təşkilatlarının birlikdə fəaliyyət göstərərək, səylərinin gücləndirilməsinin vacibliyini qeyd edərək bildirib ki, maarifləndirmə və təbliğat işi ancaq qadınlarla deyil, eləcə də yeniyetmə və gənc oğlanlar arasında da aparılmalıdır. Hər il Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi və Ailə, Qadın və Uşaq Problemləri üzrə Dövlət Komitəsinin birgə əməkdaşlığı çərçivəsində problemin daha çox rast gəlindiyi bölgələrdə maarifləndirmə tədbirlərinin həyata keçirildiyini qeyd edən M.Qurbanlı diqqətə çatdırıb ki, problemlərin həlli istiqamətləri müxtəlif ola bilər, lakin təcrübə göstərir ki, sosial məsələlərin həllində maarifçilik, insanlarla ünsiyyət, izahat işlərinin aparılması daha effektiv nəticə verir. Ölkə ərazisində məscidlərdə ancaq rəsmi təyinatı olan din xadimlərinin fəaliyyət göstərdiyini qeyd edən M.Qurbanlı bildirib ki, həmin din xadimləri də rəsmi nikah olmadan dini kəbin kəsilməsinin qanunazidd olduğunu bilirlər. Əgər hansısa bir bölgədə erkən nikaha səbəb olacaq dini kəbinin qeydə alınması halları məlum olarsa, bu zaman hüquq-mühafizə orqanları məsələyə müdaxilə edir və məsələ araşdırılır.

Azərbaycan Respublikasının Təhsil nazirinin müavini Məhəbbət Vəliyeva çıxışında Təhsil Nazirliyinin həyata keçirdiyi maarifləndirmə tədbirlərini, layihələri və qəbul edilmiş yeni sənəddən irəli gələrək görüləcək işləri diqqətə çatdırıb. O bildirib ki, ailə dəyərləri, ailənin qorunması, erkən və qohum nikahları, təhsildən yayınma halları istiqamətində yerli icra hakimiyyətləri, müvafiq dövlət qurumları və QHT-lərlə birgə əməkdaşlıq çərçivəsində həm ailələrlə iş aparılır, həm də məktəblərdə sinif rəhbərlərinin fəaliyyətinin gücləndirilməsi istiqamətində tədbirlər görülür: "9-11-ci sinif dərsliklərinə erkən nikah və qohumlar arasında nikahın mənfi nəticələrinin daxil edilməsi mühüm məsələlərdəndir. 2010-cu ildə ümumi təhsilin dövlət standartları sənədi və 2013-cü ildə təhsilin inkişafı üzrə dövlət strategiyası sənədi təsdiq edilmişdir. Həmin sənəddən irəli gələrək bu il nazirlik tərəfindən ümumi təhsilin dövlət standartları sənədinə dəyişikliklər edilərək hökumətə təqdim edilmişdir və həmin dəyişikliklər arasında yer alan başlıca məqamlardan biri sənədə səriştələrin və dəyərlərin salınmasıdır. Azərbaycanda təhsilin məzmununda kifayət qədər dəyərlərə, ailə dəyərlərinə yer ayrılmasına baxmayaraq, hazırda strateji sənəd olan dövlət standartları sənədində artıq bu, daha geniş yer tutacaq və növbəti mərhələdə bu sənəd əsasında proqramlar yenilənəcək və yeni dərsliklər hazırlanacaq".

Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri–Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurasının sədri Azay Quliyev çıxış edərək erkən nikah və qohumlar arasında bağlanan nikahların qarşısının alınmasında 3 mühüm komponentə diqqət ayrılmasının vacibliyini vurğulayıb və bu amillərə təhsil və maarifləndirmə, ictimai qınaq və hüquqi məsuliyyət daxil olduğunu bildirib. O, qeyri-hökumət təşkilatlarının reallaşdırdığı layihələrdə bu məsələlərin də hər zaman yer aldığını və həmin layihələrin qiymətləndirilməsi zamanı ekspert rəyinin önəminə diqqət çəkib.

Daha sonra çıxış edən Əmək və Əhalinin Sosial Müdafiəsi nazirinin müavini Anar Kərimov nazirlik tərəfindən qeyd edilən istiqamətlər üzrə maarifləndirmə tədbirlərinin həyata keçirildiyini bildirib və gənclərin hədəf qrupu kimi nəzərə alınması işinin gücləndirilməsinin vacibliyini vurğulayıb. Dövlət Statistika Komitəsinin sədr müavini Rauf Səlimov hər bir fəaliyyətin həyata keçirilməsində statistik məlumatların mühüm əhəmiyyət kəsb etdiyini nəzərə çatdıraraq, demoqrafiya, qadın və uşaq məsələləri ilə bağlı göstəricilərin təkmilləşdirilməsi istiqamətində işin davam etdirilməsini qeyd edib. Ədliyyə Nazirliyinin Vətəndaşlıq Vəziyyəti Aktlarının Reyestri Xidmətinin rəisi Reyhanə Kərimova Nazirlər Kabinetinin müvafiq qərarının icrasından irəli gələrək qohumlar arasında nikahların statistikasının aparılması istiqamətində tədbirlərin görüldüyünü bildirərək, vətəndaşlıq aktları qeydlərinin tərtibatına yeni bəndin əlavə edilməsi, əməkdaşların nikaha daxil olan şəxslərin məlumatına əsasən qeydiyyatın aparılması zamanı müvafiq məlumatların daxil edilməsi üzrə təlimatlandırılmasının həyata keçiriləcəyini qeyd edib.

Gənclər Fondunun icraçı direktorunun müavini Qədir Xəlilov, Səhiyyə Nazirliyinin İctimai və Səhiyyə İslahatlar Mərkəzinin şöbə müdiri Səbinə Babayeva, "Konstitusiya" Araşdırmalar Fondunun prezidenti Əliməmməd Nuriyev, Qafqaz Müsəlmanları İdarəsinin səlahiyyətli nümayəndəsi, İçərişəhər "Cümə" məscidinin dini icmasının sədri Hacı Surxay Məmmədli, Milli Televiziya və Radio Şurası Aparatının rəhbəri vəzifəsini icra edən Fazil Novruzov da çıxış edərək mövzu ətrafında fikir və təkliflərini səsləndiriblər. Bildirilib ki, Nazirlər Kabineti tərəfindən təsdiqlənən yeni qaydalar aidiyyəti dövlət orqanları tərəfindən gənclərin erkən nikahların və qohumlar arasında nikahların mənfi nəticələri barədə maarifləndirilməsi işinin daha məqsədyönlü şəkildə aparılmasına imkan verəcək.

Konfransın yekununda erkən nikah və qohumlar arasında nikahın mənfi nəticələrinə dair işin aparılması və bu istiqamətdə effektiv nəticələrin əldə edilməsi məqsədilə əməkdaşlığın gücləndirilməsi və koordinasiyalı şəkildə fəaliyyətin həyata keçirilməsinin vacibliyi ilə bağlı razılıq əldə olunub.

# Amil Cavadov: Birgəyaşayış bizim qürur duyduğumuz sərvətimizdir



Azərbaycan dövləti məscid, kilsə, sinaqoq tikən, dini-tarixi abidələri qoruyan, ibadət ocaqlarını abadlaşdıran və yenidən bərpa edən dövlətdir.

Bu fikirləri SalamNews-a Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi sədrinin köməkçisi, YAP Gənclər Birliyinin Şura üzvü Amil Cavadov deyib.

A.Cavadovun sözlərinə görə, ölkə başçısı cənab İlham Əliyevin və Birinci vitse-prezident, Heydər Əliyev Fondunun prezidenti Mehriban xanım Əliyevanın birbaşa himayəsi ilə ibadət ocaqlarında həyata keçirilən bərpa və yenidənqurma işləri, yeni ibadət yerlərinin inşa olunması, tarixi, dini, milli və mədəni dəyərlərimizə, mənəvi zənginliyimizə verilən qiymətin gözəl nümunələridir.

"Təbii ki, bütün bunlar Azərbaycanda dövlət-din münasibətlərinin nə qədər yüksək səviyyədə olmasından xəbər verir. Tarixdən gələn tolerant və multikultural dəyərlər, birgəyaşayış isə bizim qürur duyduğumuz sərvətimizdir. 1991-ci ildə müstəqilliyimizi yenidən bərpa edəndə ölkəmizdə 17 məscid fəaliyyət göstərirdi. Bu gün Azərbaycanda 2500-dən çox məscid var. Onlardan 136-sı Bakı şəhərində yerləşir. Ölkə ərazisində 14 kilsə, 7 sinaqoq mövcuddur. Dini qurumların yenidən dövlət qeydiyyatına alınması prosesi başlayandan (01.09.2009-cu il) sonra 942 dini qurum qeydiyyatdan keçib. Konfessional baxımdan onların 907-si İslam, 35-i isə qeyri-islam (xristian – 24; yəhudi – 8; krişna – 1; bəhai – 2) təmayüllüdür", - deyə A.Cavadov vurğulayıb.

# QMİ-DƏ DİN XADİMLƏRİ İLƏ VİDEOKONFRANS FORMATINDA GÖRÜŞ KEÇİRİLİB

İyulun 3-də Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) sədri Şeyxülislam Allahşükür Paşazadə din xadimləri ilə videokonfrans formatında görüş keçirib.

Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəhbərliyinin və ölkəmizdəki dini konfessiyaların rəhbərlərinin qatıldığı videogörüşdə İdarənin paytaxt və bölgələrdəki qazı və səlahiyyətli nümayəndələri də iştirak ediblər.

Şeyxülislam Allahşükür Paşazadə dini mənsubiyyətindən asılı olmayaraq, hər bir insanı təhdid edən COVID-19 bəlası ilə mübarizədə dövlət və din xadimlərinin bir araya gələrək qüvvələrini səfərbər etmələrində fayda olduğunu xatırladıb. QMİ sədri Azərbaycan dövlətinin pandemiyanın yayılmasının qarşısının alınması üçün gördüyü genişmiqyaslı işlərdən bəhs edib. Azərbaycan Prezidentinin ölkə daxilində həyata keçirdiyi ardıcıl tədbirlərin əhəmiyyətindən danışan A.Paşazadə, həmçinin dövlətimizin 30-dan çox ölkəyə humanitar yardım göstərməsini, dövlət rəhbərimizin beynəlxalq əməkdaşlığın təşəbbüskarı olaraq qlobal nümunələr nümayiş etdirdiyini təqdirlə vurğulayıb. Dövlətimizin başçısının BMT-nin Baş Assambleyasının pandemiyanın qarşısının alınması məqsədilə xüsusi sessiyasının keçirilməsi təşəbbüsü ilə çıxış etməsinin bəşəri təhlükə ilə mübarizədə qlobal həmrəyliyin təmininə xidmət edən beynəlxalq əməkdaşlıq nümunəsi olduğunu bildirən QMİ sədri bunu olduqca əhəmiyyətli, dəyərli addım kimi qiymətləndirib.

A.Paşazadə Nazirlər Kabineti yanında təsis edilən Operativ Qərargahın fəaliyyətini təqdir edərək, QMİ-nin bu qurumla fəal əməkdaşlıq etdiyini, dini səciyyəli məsələlərə dair tövsiyə və qərarları birgə müzakirə etdiklərini diqqətə çatdırıb. Şeyxülislam Allahşükür Paşazadə QMİ-nin geniş beynəlxalq əlaqələrinin pandemiya dövründə də davam etdirildiyini söyləyib.

Amansız xəstəlik dövründə mücadilənin ön cəbhəsində mübarizə aparan həkimlərin, polislərin zəhmətini yüksək dəyərləndirən QMİ sədri din xadimlərimizin də bu istiqamətdə fədakar xidmətini xüsusi qeyd edib. O bildirib ki, din xadimlərinin mənəvi dəstəyi, müqəddəs dinimizin aşıladığı yüksək dəyərləri insanlara təlqin etməsi, ən çətin anlarında insanların yanında olması, xəstəlik riskini göz önünə alaraq dini vacibatları yerinə yetirməsi minnətdarlıqla qarşılanır. Buna görə din xadimlərinə təşəkkürünü bildirən QMİ sədri koronavirus səbəbindən dünyasını dəyişənlərə Allahdan rəhmət diləyib, onların əzizlərinə başsağlığı verib, xəstələrə şəfa diləyib.

Pandemiyanın gedişatından, yaratdığı reallıqlardan, fəsadlardan ətraflı bəhs edən Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı bu bəlanın dəf olunması üçün zəruri olan məqamları din xadimləri ilə bölüşüb. QMİ-də pandemiyanın başlanğıc dövründə keçirilmiş toplantıda bütün zəruri tövsiyələrin açıqlandığını bildirən M.Qurbanlı bunun öz müsbət nəticəsini verdiyini diqqətə çatdırıb. Qeyd edib ki, Prezident İlham Əliyevin 2020-ci il 19 mart tarixli Fərmanı ilə Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, martın 28-də Bakıda müasir standartlara cavab verən "Yeni klinika" tibb müəssisəsinin istifadəyə verilməsi,



modul tipli xəstəxanaların tikilməsi infeksiya ilə mübarizədə böyük əhəmiyyət daşıyır. Eyni zamanda, Heydər Əliyev Fondunun göstərdiyi fəallıq da mütləq qeyd olunmalıdır. Fond pandemiyaya qarşı mübarizəyə dəstək verərək böyük sosial layihə həyata keçirdi. "Biz birlikdə güclüyük!" aksiyası çərçivəsində aztəminatlı və digər həssas təbəqədən olan 100 mindən çox ailəyə yardım paylanıldı. Eyni zamanda, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın koronavirus pandemiyası ilə əlaqədar ölkədə xüsusi karantin rejiminin tətbiq olunduğu müddətdə talassemiya və hemofiliya, eləcə də leykoz xəstəliyindən əziyyət çəkənlər üçün qan ehtiyatının yaradılmasına dəstək çağırışı ilə əlaqədar olaraq bütün ölkə ərazisində qanvermə aksiyaları təşkil olundu.

Hər hansı ölkənin təkbaşına COVID-19-la mübarizəsinin qeyri-mümkünlüyünü vurğulayan Komitə sədri dövlətimizin qlobal müstəvidə bütün dünya dövlətlərinin səylərinin birləşdirilməsi yönündə atdığı addımları, xüsusən, BMT-nin Baş Assambleyasının pandemiyanın qarşısının alınması məramı ilə xüsusi sessiyasının keçirilməsi təşəbbüsünü nəzərə çatdırdı.

Dövlət tərəfindən bütün lazımi addımların atıldığını vurğulayan M.Qurbanlı din xadimlərinin bu işə dəstək göstərmələrini qeyd edərək, virusun çox təhlükəli olduğunu və bundan qorunma tədbirlərini təbliğ edən moizə və çıxışlarının böyük önəm kəsb etdiyini xüsusi vurğulayıb. Bu əsnada, din xadimlərimizin müxtəlif internet platformalarında, sosial şəbəkələrdə yayımlanan moizələrini dinləyərkən onların səviyyəsindən razı qaldığını dilə gətirən Komitə sədri məscidlərin vəfat etmiş insanlar qarşısında dini-mənəvi borclarını yerinə yetirmələrini yüksək dəyərləndirib.

Videogörüşdə çıxış edən dini konfessiya rəhbərləri - Bakı və Azərbaycan Arxiyepiskopu Aleksandr, Dağ yəhudiləri icmasının başçısı Melix Yevdayev, Katolik icmasının rəhbəri Yepiskop Vladimir Fekete və Alban-udi icmasının başçısı Robert Mobili din xadimləri olaraq dünyanın tezliklə virus təhlükəsindən qurtulmağı, bəşərin xilası və Azərbaycan hökumətinin bu istiqamətdə gördüyü işlərin uğuru üçün dualar ediblər. Bildiriblər ki, xəstəliklə mübarizə üçün dinindən asılı olmayaraq cəmiyyətin bütün zümrələri səfərbər olmalı, lazımi davranış qaydalarına əməl etməli, dövlətimizə dəstək olmalıdırlar.

QMİ sədrinin birinci müavini Salman Musayev pandemiya dövründə məscidlərin kütləvi ibadətlərə bağlı olması şəraitində din xadimlərinin ehtiyacı olan insanlara, yaşlılara, əlillərə yardımlar təşkil etdiyini, dəfn mərasimlərinin dinimizin qaydalarına uyğun keçirilməsini təmin etmələrini, yayımlanan moizələri ilə insanlara mənəvi dayaq olmalarını diqqətə çatdırıb. Müfti məscidlərin bağlı qalması səbəbindən televiziya kanallarında din xadimlərinin insanların mənəvi ehtiyac duyduğu çıxışlarına imkan və şərait yaradılması məsələsinə dövlət komitəsinin yardımçı olmasını zəruri hesab etdiyini qeyd edib.

QMİ sədri Şeyxülislam Allahşükür Paşazadənin moderatorluğu ilə davam edən videoiclasda Naxçıvan Muxtar Respublikası üzrə qazı Sahib Məmmədov, Xəzər rayonu üzrə qazı Soltan Əlizadə, Cəbrayıl rayon Cocuq Mərcanlı kənd məscidinin imamı Elman Piriyev, Nəsimi rayonu üzrə səlahiyyətli nümayəndə Şahin Həsənli, Quba bölgəsi üzrə qazı Naib Səttarov, Gəncə bölgəsi üzrə səlahiyyətli nümayəndə Tahir Abbasov, Cənub bölgəsi üzrə qazı Qəni Axundzadə, Balakən rayonu üzrə qazı İbrahim İbrahimov, Təzəpir məscidinin imamı Mircəfər Əyyubov, Sumqayıt şəhəri üzrə qazı Rauf Sərdarov, Qəbələ bölgəsi üzrə qazı Ceyhun Rüstəmov, Şamaxı rayonu üzrə səlahiyyətli nümayəndə Mirəhməd Mustafayev, İçərişəhər üzrə səlahiyyətli nümayəndə Surxay Məmmədov, Qazax bölgəsi üzrə qazı İlham Süleymanov, İmişli rayonu üzrə səlahiyyətli nümayəndə Adıgözəl Bəşirov çıxış ediblər.

Çıxışlarda din xadimləri öz fəaliyyətlərini QMİ-nin tövsiyələrinə və direktivlərinə uyğun olaraq həyata keçirdiklərini və dövlətimizin pandemiyanın qarşısının alınmasına yönəlik addımlarını dəstəklədiklərini bildiriblər. Din xadimləri Uca Allahın köməyi və dövlətimizin gördüyü tədbirlər sayəsində tezliklə virus təhlükəsinin sovuşacağına ümidvar olduqlarını söyləyiblər.

Görüşdə təkliflərini səsləndirən din xadimləri onları ən çox narahat edən məqamlar sırasında sosial şəbəkələrdə dövlət və din xadimlərinin ünvanına yönəlik təhqir və qarayaxma kampaniyaları olduğunu birmənalı şəkildə vurğulayıblar. Din xadimləri xarici xüsusi xidmət orqanları tərəfindən yönləndirilən simasız şəxslərin belə üzdəniraq, haqsız çıxışlarının dindar insanların heysiyyətinə toxunduğunu və bu abırsız şəxslərin öz əməllərinə görə qanun qarşısında cəzalandırılmasını tələb etdiklərini diqqətə çatdırıblar.

Videogörüşün sonunda QMİ sədri din xadimlərinin bütün təkliflərinin nəzərdən keçiriləcəyini vurğulayıb.

# AKADEMİK VASİM MƏMMƏDƏLİYEVİN XATİRƏSİNƏ HƏSR OLUNAN RESPUBLİKA ELMİ KONFRANSI KEÇİRİLƏCƏK




Azərbaycan İlahiyyat İnstitutu noyabrın 26-da Azərbaycan Əməkdar elm xadimi, akademik Vasim Məmmədəliyevin xatirəsinə həsr olunan "Akademik Vasim Məmmədəliyevin ilahiyyat və şərqşünaslıq elmlərinə verdiyi töhfələr" mövzusunda elmi konfrans təşkil edəcək.

Konfransda akademik Vasim Məmmədəliyevin həyatı və elmi-pedaqoji, elmi-dini, dini-maarifçilik, tərcüməçilik fəaliyyətinə, onun ilahiyyatçı kadrların yetişməsində, Azərbaycanda dinşünaslıq və islamşünaslığın inkişafında roluna həsr olunan məruzələr dinləniləcək.

Konfransda iştirak etmək istəyənlər məqalələrini sentyabrın 29-dək ilahiyyatkonfrans@ait.edu.az elektron ünvanına göndərməlidir.

Məqalələr heç bir yerə təqdim edilməmiş, 6-15 səhifədən ibarət yeni tədqiqatlar olmalıdır.

**Əlaqələndirici şəxslər:**

Şahin Ələsgərov
(+99412) 510 65 45, (+99455) 529 93 80;

Emil İsbatov
(+99412) 510 65 45, (+99455) 200 21 03.

# DİNİ QURUMLARLA İŞ ÜZRƏ DÖVLƏT KOMİTƏSİ YANINDA İCTİMAİ ŞURANIN SEÇKİ KOMİSSİYASININ GÖRÜŞÜ KEÇİRİLİB



İyulun 17-də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi yanında İctimai Şuraya seçkinin təşkili məqsədilə yaradılan Seçki Komissiyasının ilk onlayn formatda görüşü keçirilib.

Görüş çərçivəsində İctimai Şuraya seçkilərin təşkili və üzvlərin say həddinin müəyyən edilməsi, eləcə də seçki gününün müəyyən edilməsi məsələləri müzakirə edilib.

Dövlət Komitəsi sədrinin birinci müavini, Seçki Komissiyasının sədr müavini Səyyad Salahlı İctimai Şuranın fəaliyyəti və gündəlikdə duran məsələləri diqqətə çatdırıb. O bildirib ki, bu il vətəndaş cəmiyyəti institutlarının təmsilçiliyini genişləndirmək məqsədilə İctimai Şuranın üzvlərinin say həddinin 7 nəfər müəyyən olunması məqsədəuyğundur.

Qeyd edib ki, Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin rəsmi internet səhifəsində İctimai Şuraya namizədlərin irəli sürülməsi, qeydiyyatının başlanması və başa çatması vaxtı barədə elan verilib və İctimai Şuranın üzvlüyünə namizədlərin irəli sürülməsi prosesi üçün 13 may 2020-ci il tarixindən 20 iyun 2020-ci il tarixinədək vaxt müəyyənləşdirilib. Həmin müddət ərzində ictimai fəallar tərəfindən müraciətlər daxil olub. Sənədlər yoxlanılaraq qəbul olunub və Seçki Komissiyasının üzvlərinə təqdim edilib.

Daha sonra Komissiya üzvləri - "Yeni Həyat" Humanitar və Sosial Dayaq İctimai Birliyinin sədri Nailə İsmayılova, "SAF Həyat Naminə" Gənclər İctimai Birliyinin sədri Dinara Bayramlı, Beynəlxalq Avrasiya Mətbuat Fondunun sədri Umud Mirzəyev, "Sağlam Yaşa" gənclərin maarifləndirilməsi İctimai Birliyinin sədr müavini Təlat Qəribov, "Dəyər" Mənəvi İrsin Təbliği İctimai Birliyinin sədri Sevinc Qarayeva da şuraya seçkilərin keçirilməsi ilə bağlı rəy və təkliflərini səsləndiriblər.

Görüşün yekununda Seçki Komissiyasının Protokolu hazırlanıb. Protokola əsasən, şuranın üzvlərinin say həddi 7 üzvdən ibarət tərkibdə müəyyən edilib və İctimai Şuraya seçki gününün keçirilməsi üçün nəzərdə tutulan müddətin pandemiya şəraiti nəzərə alınmaqla sentyabr ayına təyin edilməsi qərara alınıb.

Qeyd edək ki, seçkidə iştirak etmək üçün müraciət edən 11 nəfərin namizədliyi təsdiq edilib.

# DİN XADİMLƏRİNƏ YAS MƏRASİMLƏRİNDƏ VƏ EHSAN SÜFRƏLƏRİNDƏ İŞTİRAK ETMƏMƏK TÖVSİYƏ OLUNUR



4 iyulda Şəmkir rayonu Aşağı Seyfəli kəndində karantin rejimi qaydaları pozularaq keçirilmiş yas mərasiminin din xadimi kimi Baxtiyar Vəliyev saxlanılmış, İnzibati Xətalar Məcəlləsinə əsasən cərimələnmişdir.

Bunu Trend-ə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin Dini qurumlarla iş üzrə şöbəsinin müdiri Cahandar Əlifzadə deyib.

O qeyd edib ki, Dövlət Komitəsi həmin şəxslə bağlı araşdırma aparmış, məlum olmuşdur ki, Bəxtiyar Vəliyev Şəmkir rayonu Yeni Həyat kəndində fərdi qaydada mollalıqla məşğul olur:

"Yəni o, Qafqaz Müsəlmanları İdarəsi tərəfindən hər hansısa dini vəzifəyə təyin edilməmişdir. Ümumiyyətlə, bildirməliyəm ki, belə hadisələrin baş verməməsi üçün Dövlət Komitəsi QMİ və Rayon İcra Hakimiyyəti başçıları yanında fəaliyyət göstərən dini komissiyalarla müzakirələr aparır və maarifləndirici tədbirlər həyata keçirir.

Eyni zamanda, bu məsələ QMİ-nin də diqqət mərkəzindədir. Hələ Nazirlər Kabineti yanında Operativ Qərargah yas mərasimləri ilə bağlı qərar verməmişdən öncə, bu ilin mart ayının 5-də ölkədə bu məsələ ilə bağlı fikrini açıqlamışdır.

Din xadimlərinə yas mərasimlərində və ehsan süfrələrində iştirak etməmək tövsiyə olunmuşdur. Bundan sonra da QMİ tərəfindən bir neçə dəfə oxşar bəyanat verilmişdir. Dövlət Komitəsində olan məlumatlara görə, rəsmi din xadimləri karantin rejimi qaydalarına riayət edirlər. Lakin təəssüflər olsun ki, belə qeyri-rəsmi şəxslər bunu fürsət bilib, şəxsi mənfəətləri üçün din xadimi adına yaraşmayan hərəkətlərə yol verirlər. Koronavirusun yayıldığı yerlərdən birinin də yas mərasimləri olduğunu bilə-bilə insanların sağlamlığını təhlükə altında qoyurlar".

# MALAYZİYA PARLAMENTİ AZƏRBAYCANI DƏSTƏKLƏYƏN BƏYANAT YAYIB

Malayziya parlamentində fəaliyyət göstərən Malayziya-Azərbaycan parlamentlərarası dostluq qrupu cari il iyulun 12-dən başlayaraq Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində mövqeləri ələ keçirmək məqsədilə başladığı hücum cəhdləri ilə bağlı ölkəmizə güclü dəstək ifadə edən bəyanat yayıb.



Parlamentlərarası dostluq qrupunun üzvləri adından qrupun sədri Datuk Rozman Bin Datuk Haji İsli tərəfindən iyulun 24-də imzalanmış bəyanatda Ermənistan silahlı qüvvələrinin təcavüzkar addımları pislənib, Azərbaycanın müstəqilliyinə, ərazi bütövlüyünə və suverenliyinə birmənalı dəstək ifadə olunub.

Sənəddə Qoşulmama Hərəkatının Koordinasiya Bürosunun cari il iyulun 18-də qəbul edilmiş kommünikesinə istinad edilərək, Ermənistan-Azərbaycan münaqişəsinin BMT-nin Təhlükəsizlik Şurasının 822, 853, 874 və 884 saylı qətnamələri çərçivəsində həll edilməli olduğu bildirilib, ərazi bütövlüyünün təmin edilməsi istiqamətində Azərbaycan ilə həmrəylik vurğulanıb. Həmçinin İslam Əməkdaşlıq Təşkilatının 2020-ci il 14 iyul tarixli bəyanatından bəhs edilərək, Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş ərazilərindən qeyd-şərtsiz çıxarılması tələb edilib. Bu münaqişənin Azərbaycanın suverenliyi, ərazi bütövlüyü və sərhədlərinin toxunulmazlığı prinsipləri əsasında sülh yolu ilə həllinə dəstək ifadə olunub.

Bəyanatla əlaqədar Azərbaycanın Malayziyadakı səfiri Qaley Allahverdiyev qanunverici Datuk Rozman Bin Datuk Haji İslinin timsalında Malayziya-Azərbaycan parlamentlərarası dostluq qrupunun üzvlərinə minnətdarlığını bildirib. Belə bir dəstəyin təsadüfi olmadığını, qardaş Malayziya xalqının və hökumətinin Azərbaycanın ərazi bütövlüyü məsələsində birmənalı mövqeyini qətiyyətli şəkildə davam etdirdiyini qeyd edib. İki dövlət arasında dostluq və yaxın əməkdaşlıq münasibətlərinin qarşılıqlı etimada, hörmətə, o cümlədən Azərbaycan və Malayziyanın ali siyasi institutlarının bu istiqamətdə nümayiş etdirdiyi güclü və prinsipial iradəyə əsaslandığını vurğulayıb.

# AZƏRBAYCANDAKI DİNİ KONFESSİYALARIN RƏHBƏRLƏRİ DÜNYA İCTİMAİYYƏTİNƏ, DİNİ LİDERLƏRƏ VƏ BEYNƏLXALQ TƏŞKİLATLARA MÜRACİƏT ÜNVANLAYIBLAR

Azərbaycandakı dini konfessiyaların rəhbərləri dünya ictimaiyyətinə, dini liderlərə və beynəlxalq təşkilatlara müraciət ünvanlayıblar.

*Müraciətdə deyilir:*

Biz – Azərbaycanda fəaliyyət göstərən dini konfessiyaların rəhbərləri iyulun 12-də Ermənistan silahlı qüvvələrinin Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində törətdiyi hərbi təxribatı, dinc əhalini, yaşayış yerlərini, dini məbədləri davamlı atəşə tutmasını qətiyyətlə pisləyir və dünya ictimaiyyətini, dini liderləri və beynəlxalq təşkilatları bu hadisəyə biganə qalmamağa, müvafiq mövqe nümayiş etdirməyə çağırırıq.

Biz Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin nizamlanmasına dair beynəlxalq səyləri dəstəkləyirik və beynəlxalq təşkilatları, o cümlədən BMT-ni, ATƏT-in Minsk qrupunu mülki şəxsləri hədəf seçən bu cinayəti törədənlərə qarşı adekvat münasibət göstərilməsi istiqamətində səylərini birləşdirməyə çağırırıq. İndiyədək qoşunların təmas xəttində və hazırda Azərbaycan-Ermənistan sərhədində çoxsaylı insan tələfatları səbəbindən Azərbaycan xalqının, xüsusən gənclərin kütləvi şəkildə orduya səfərbər olunub cəbhə xəttinə yollanmaq istəyi qürurverici vətənpərvərlik nümunəsidir, lakin biz din xadimlərini narahat edən məsələ Ermənistan tərəfindən hərbi təxribatlar davam edərsə, münaqişənin alovlanaraq böyük müharibəyə çevrilmə ehtimalıdır. Bu reallıq 30 ildən çox davam edən münaqişənin həlli ilə məşğul olan tərəflərin nəzərə almalı olduğu mühüm məqamdır. Bəzən işğalçı ilə işğala məruz qalan tərəfin eyniləşdirilməsi münaqişənin həllinə xidmət edə bilməz. Beynəlxalq hüquq və normalara riayət, istisnasız olaraq hamının borcudur. Dinc əhaliyə qarşı silah işlədilməsi Ermənistan dövlətinin davamlı hərbi təcavüzünün, Azərbaycan xalqına qarşı həyata keçirilən etnik təmizləmə və terror aktlarının davamıdır. Atəşkəs elan edilməsinə rağmən, mülki əhalinin mütəmadi atəşə tutulması, qətlə yetirilməsi, ölüm təhlükəsi altında yaşamağa məcbur qoyulması, dini məbədlərin dağıdılması beynəlxalq müstəvidə təcavüzkara qarşı münasibəti kökündən dəyişməyin, növbətçi açıqlamalardan qətiyyətli addımlar atmaq mərhələsinə keçməyin vaxtının çoxdan çatdığını bir daha sübuta yetirir.

Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinin böyüyərək dünyanın müxtəlif qitələrinə, o cümlədən Avropa, Amerika müstəvisinə keçməsi, xarici ölkələrdə yaşayan azərbaycanlılar və ermənilər arasında etnik zəmində qarşıdurma hallarının yaşanması olduqca böyük təhlükənin göstəricisidir. Bu, separatizm, terror dalğası üzərində yaranmış, uzun müddət ədalətli həllini tapmayan regional konfliktin qlobal miqyas kəsb etməsinin acı təzahürüdür. Ermənilərin xaricdəki Azərbaycan diasporunu və diplomatik nümayəndəliklərimizi hədəf alması, üzərinə hücum etməsi həll olunmamış konfliktin fəsadlarıdır və dünya ictimaiyyəti buna biganə qalmamalıdır.

Birləşmiş Millətlər Təşkilatı bu günədək beynəlxalq hüququn və fundamental insan haqlarının keşiyində ardıcıl duran beynəlmiləl qurumdur. Bu il yaranmasının 75-ci ildönümü tamam olan BMT kimi mötəbər beynəlxalq strukturun Təhlükəsizlik Şurasının Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsinə dair 4 qətnaməsinin tələbləri Ermənistan tərəfindən bu günədək yerinə yetirilmir. Bu qətnamələrin reallaşmasını təmin edəcək addımların düşünülməsi BMT-nin şanlı yubileyi ərəfəsində nüfuz və dəyərinin daha da artmasına xidmət edən məqam olardı.

Dünyanı məhvərindən çıxmağa qoymayan əbədi bəşəri dəyərlərə istinad edən din xadimləri bütün dünyada hər zaman sülh və anlaşma tərəfdarı kimi çıxış etməlidirlər. Vətənimiz Azərbaycan müxtəlif din ardıcıllarının dinc birgəyaşayışının gündəlik həyati reallıq, multikulturalizmin həyat tərzi olduğu nadir ölkələrdəndir. O bir olan Yaradanımız qarşısında məsuliyyətimiz bizi - dini konfessiya rəhbərlərini sülh və mövcud problemlərin ədalətli həlli naminə səyləri dəstəkləməyə sövq edir. Lakin sülh və anlaşmaya nail olmağın yolu asan deyil və çoxlu zəhmət, güclü iradə, səylərin birləşdirilməsini tələb edir.

Münaqişə başlayan zamandan etibarən Rus Pravoslav Kilsəsinin vasitəçiliyi ilə Azərbaycan və Ermənistan dini liderlərinin dəfələrlə sülhməramlı görüşləri baş tutub. Sülh və dinc yanaşı yaşamağa nail olmaq üçün qarşılıqlı etimadın gücləndirilməsi məqsədilə ünsiyyətlərin nəticəsi olaraq münaqişənin dinlərarası müstəviyə keçməsinin qarşısı alınıb. Etibarlı sülh yalnız xoş məram və səmimi niyyət olarsa, mümkündür. Lakin, təəssüflər olsun ki, erməni tərəfinin təxribatları növbəti dəfə münaqişənin sülh yolu ilə həll olunması istiqamətində danışıqlar prosesinin pozulmasına gətirib çıxarır. Bu təxribatın bütün siyasi və hüquqi məsuliyyəti Ermənistan tərəfinin üzərindədir.

Bütün səmavi dinlər dinc, günahsız insanların qətlini ən ağır cinayət kimi qiymətləndirir. Biz beynəlxalq ictimaiyyəti Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal olunmuş Dağlıq Qarabağ bölgəsi, onun ətrafındakı 7 rayonumuzda, həmçinin hazırda Azərbaycan-Ermənistan sərhədində törətdiyi hərbi təxribatlar zamanı dinc insanların qətli kimi qəbuledilməz bir hala qarşı öz qətiyyətli münasibətini bildirməyə, təcavüz və təxribat hallarını kəskin qınamağa çağırır, bu kimi halların qarşısının alınması, ədalətli sülhün bərqərar olması naminə səyləri birləşdirməyə çağırırıq. Yaradanımız qarşısında, xalqlarımız qarşısında borc və məsuliyyətimiz biz dini liderləri sülh, mərhəmət və mövcud problemlərin ədalətli həlli naminə səy göstərməyə məsul edir. Bu əsnada, dünya katoliklərinin lideri Roma Papası Zati-müqəddəsləri Fransiskin Qafqaz regionunda Ermənistan və Azərbaycan arasında hərbi gərginliyin kəskinləşməsindən narahatlığını, son döyüşlərdə ölənlərin ailələri üçün dua etməsini yüksək dəyərləndirir, Pontifik həzrətlərinin təbirincə desək, beynəlxalq ictimaiyyətin köməyi ilə "dialoq və tərəflərin xoş istəyi ilə bu sevimli xalqların xeyrinə münaqişənin davamlı sülh ilə həll yolu əldə edilə biləcəyinə" ümidini bölüşürük.

Ümidvarıq ki, dünya dini liderlərinin, beynəlxalq təşkilatların səyləri və dünya ictimaiyyətinin dəstəyi ilə Ermənistan-Azərbaycan Dağlıq Qarabağ münaqişəsi beynəlxalq hüquq norma və prinsipləri əsasında tezliklə öz ədalətli həllini tapacaqdır.

Uca Yaradan Yer üzündə sülhü və əmin-amanlığı bərqərar etsin. Amin.

**Şeyxülislam Allahşükür Paşazadə**
Qafqaz Müsəlmanları İdarəsinin sədri

**Arxiyepiskop Aleksandr**
Rus Pravoslav Kilsəsinin Bakı və Azərbaycan Yeparxiyasının rəhbəri

**Melih Yevdayev**
Azərbaycandakı Dağ yəhudiləri icmasının rəhbəri

**Robert Mobili**
Alban-udi xristian dini icmasının sədri

# PATRİARX KİRİLL: HƏR DƏFƏ DAĞLIQ QARABAĞ MÜNAQİŞƏSİNİN KƏSKİNLƏŞMƏSİNİ ŞƏXSİ AĞRI KİMİ QƏBUL EDİRƏM

Moskvanın və bütün Rusiyanın Patriarxı Kirill Ermənistanı və Azərbaycanı dialoqa başlamağa və ekstremistlərə uymamağa çağırıb.

Bu barədə Patriarxın Rus Pravoslav Kilsəsinin (RPK) saytında dərc edilmiş bəyanatında deyilir.

Bəyanatda göstərilir ki, 2020-ci il iyulun 12-də Ermənistan-Azərbaycan sərhədində yenidən silahlı qarşıdurma yaranması hər iki tərəfdən insan tələfatı ilə nəticələnib. Sənəddə deyilir: "Əsrlər boyu yanaşı yaşamış xalqların münaqişəsi 33 ildir ki, davam edir. Mən 1989-cu ildən bu münaqişənin sülh yolu ilə həll edilməsi işində iştirak edirəm. Hər dəfə vəziyyət kəskinləşəndə bunu şəxsi ağrı kimi qəbul edirəm. 25 il bundan əvvəl, 1995-ci il iyunun 13-də Moskvadakı Svyato-Danilovo monastırında Azərbaycan, Ermənistan və Rusiya dini liderlərinin birinci üçtərəfli görüşü oldu. Təşəbbüskarı Rus Pravoslav Kilsəsi olmuş həmin görüşün yekunlarına əsasən qəbul edilmiş birgə bəyanatda Ermənistan-Azərbaycan münaqişəsi dini zəminə əsaslanmayan münaqişə kimi baxış ifadə edilmişdi. Bu gün, qarşıdurmanı kəskinləşdirmək üçün millətlərarası münaqişəyə din amilini süni yolla daxil etməyə çalışanlar bunu yadda saxlamalıdırlar".



Patriarx Kirill bildirib ki, bu gün Rus Pravoslav Kilsəsi münaqişənin hər iki tərəfini dialoqa çağırır.

RPK-nin bəyanatında deyilir: "Qafqazda gərginliyin artması müəyyən qüvvələr üçün sərfəlidir. Mən münaqişə tərəflərini belə qüvvələrə uymamağa çağırıram. Qafqazda yeni müharibə labüd olaraq müxtəlif terrorçu və ekstremistləri cəlb edəcək, onlar bu regionu sülhdən və əmin-amanlıqdan məhrum edəcəklər. Rus Pravoslav Kilsəsi Qarabağ münaqişəsinin nizamlanması üçün çoxillik sülhyaratma fəaliyyəti göstərib. Buna görə mənim Azərbaycanın və Ermənistanın dini liderlərinə müraciət etməyə haqqım var. Əziz qardaşlar, sizdən xahiş edirəm, qardaşcasına görüşlərdə möhkəmlədə bildiyimiz nailiyyətləri qoruyub saxlayın.

Rus Pravoslav Kilsəsi bu münaqişənin mümkün qədər tezliklə başa çatması üçün ürəkdən dua edir. Ümidvarıq ki, bizə qardaş olan Ermənistan və Azərbaycan xalqları etimadsızlığı azaltmaq, düşmənçiliyə son qoymaq, qarşılıqlı məqbul qərarlar qəbul etmək üçün özlərində qüvvə və müdriklik tapacaqlar".

# MÜBARİZ QURBANLI: AZƏRBAYCANDA DİNİ ETİQAD AZADLIĞININ TƏMİN OLUNMASI DİN-DÖVLƏT-CƏMİYYƏT MÜNASİBƏTLƏRİNİN ƏSASINDA DAYANAN MÜHÜM FAKTORDUR

## Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının Teleqraf.com-a müsahibəsi



**- Mübariz müəllim, ölkədə koronavirus pandemisına qarşı aparılan mübarizəni necə qiymətləndirirsiz? Özünüz və komitə əməkdaşları infeksiyadan necə qorunur?**

- Bir neçə aydır bütün dünyada COVID-19 virusu geniş yayılmaqdadır. Bu gün pandemiya qlobal bəla kimi dünya əhalisinin sağlamlığına təhdid yaratmaqla yanaşı, həm də ölkələrin iqtisadiyyatına böyük ziyan vurmaqdadır. Statistik göstəricilərə görə, dünyada virusa yoluxanların sayı artır, pandemiya hətta ən qabaqcıl ölkələrin səhiyyə sistemlərinə də çətinliklər yaradır.

Sözsüz ki, bütün dünyanı ağuşuna alan bu bəla Azərbaycanda da öz mənfi təsirini göstərdi. Pandemiyanın qarşısının alınması, onun doğurduğu sosial-iqtisadi problemlərin aradan qaldırılması istiqamətində Azərbaycan dövləti tərəfindən çevik və məqsədyönlü siyasət aparılır, virusa qarşı mübarizənin ilkin mərhələsindən başlayaraq qabaqlayıcı addımlar atılır, yoluxucu xəstəliklə bağlı vəziyyət nəzarət altında saxlanılır. İnfeksiyanın ehtimal olunan bütün ocaqlarını məhv etmək üçün ciddi səylər göstərilir.

Prezident cənab İlham Əliyevin tapşırıq və tövsiyələrinə uyğun olaraq, bu xəstəliklə ölkəmizdə ilk gündən ciddi mübarizə aparılır. Koronavirus pandemiyasına qarşı mübarizə sahəsində həyata keçirilən səhiyyə tədbirləri çərçivəsində tibb müəssisələrinə və tibbi avadanlığa artan tələbatın qarşılanması və infeksiyaya yoluxmuş xəstələrin müalicəsinin səmərəli təşkili məqsədilə modul tipli xəstəxanalar inşa edilir ki, bu, COVID-19 pandemiyasının ölkəmizdə yayılması ilə mübarizədə olduqca mühüm əhəmiyyət kəsb edir.

Prezident İlham Əliyevin 2020-ci il 19 mart tarixli Fərmanı ilə Koronavirusla Mübarizəyə Dəstək Fondunun yaradılması, martın 28-də Bakıda müasir standartlara cavab verən "Yeni klinika" tibb müəssisəsinin istifadəyə verilməsi, modul tipli xəstəxanaların tikilməsi infeksiyanın yayılmasının qarşısının alınması və onunla mübarizə sahəsində həyata keçirilən tədbirlərə maliyyə dəstəyinin göstərilməsi baxımından böyük əhəmiyyət daşıyır.

Eyni zamanda, Azərbaycan Respublikası Prezidentinin Ehtiyat Fondu və digər ehtiyat mənbələri hesabına dövlət büdcəsindən pandemiya ilə mübarizənin və iqtisadiyyata mənfi təsirlərin azaldılması tədbirlərinin maliyyələşdirilməsi üçün 1 milyard 350 milyon manat məbləğində vəsait ayrıldı. Bu vəsaitin 350 milyon manatlıq hissəsi bir sıra zəruri tibbi ləvazimatların və avadanlıqların alınması, dövlət və özəl tibb müəssisələrində çalışan tibb işçilərinə, cəlb olunmuş könüllülərə xüsusi əlavə və müavinətlərin ödənilməsi, dezinfeksiya işlərinin genişləndirilməsi və digər tibbi ehtiyacların maliyyələşdirilməsinə yönəldildi. Dövlət fondları və digər maliyyə resurslarının səfərbər edilməsi nəticəsində ümumi maliyyə dəstək paketi 3,5 milyard manata yaxındır.

Koronavirusla Mübarizəyə Dəstək Fonduna könüllü ödəmələrin həyata keçirilməsində fiziki və hüquqi şəxslərin, xüsusilə Yeni Azərbaycan Partiyası üzvlərinin və könüllülərinin, Heydər Əliyev Fondunun göstərdiyi fəallığı qeyd etməliyik. Fond pandemiyaya qarşı mübarizəyə dəstək verərək böyük sosial layihə həyata keçirdi. "Biz birlikdə güclüyük" aksiyası çərçivəsində aztəminatlı və digər həssas kateqoriyadan olan 100 mindən çox ailəyə yardım paylanıldı. Eyni zamanda, Azərbaycan Respublikasının Birinci vitse-prezidenti Mehriban Əliyevanın koronavirus (COVID-19) pandemiyası ilə əlaqədar ölkədə xüsusi karantin rejiminin tətbiq olunduğu müddətdə talassemiya və hemofiliya, eləcə də leykoz xəstəliyindən əziyyət çəkənlər üçün qan ehtiyatının yaradılmasına dəstək çağırışı ilə əlaqədar olaraq bütün ölkə ərazisində qanvermə aksiyaları təşkil olundu.

Nazirlər Kabineti yanında Operativ Qərargahın tövsiyələrinə uyğun olaraq sosial izolasiya qaydalarına əməl edərək mən və ailə üzvlərim, eləcə də Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin əməkdaşları da tibbi maskadan istifadə edir, eyni zamanda, digər sanitar-gigenik qaydalara əməl edirik. Komitə əməkdaşları, eləcə də din xadimləri arasında infeksiyaya yoluxma hallarına rast gəlinməyib.

**- Artıq bir sıra ölkələr məscidləri ibadət üçün açıb. Bəs Azərbaycanda məscidlərin açılması nə zamana planlaşdırılır?**

- Ölkəmizdə bu il mart ayının 18-dən qapalı məkanlarda dini ayinlərin icrası Nazirlər Kabineti yanında Operativ Qərargah tərəfindən məhdudlaşdırılıb. Lakin Azərbaycandakı dini icmalar artıq bu vaxtadək bu məsələyə münasibətlərini bildirmişdilər. Mart ayının 5-də Qafqaz Müsəlmanları İdarəsində ölkəmizdəki bütün dini konfessiyaların rəhbərlərinin iştirakı ilə toplantı keçirildi, dini icmalara və dindarlara dini ayinləri evlərində yerinə yetirmələri ilə bağlı tövsiyə və çağırışlar edildi. Həmin dövrdən etibarən bütün ibadət evlərində, o cümlədən məscidlərdə dini ayinlərin icrası dayandırıldı.

Hazırda məscidlərdə vaxtı-vaxtında azanlar verilir. Bəzi din xadimləri tərəfindən internet vasitəsilə onlayn moizələr təşkil edilir.

Bu gün bəzi ölkələrdə koronavirus pandemiyası ilə əlaqədar bir sıra sahələrdə, o cümlədən dini ibadət yerləri ilə bağlı məhdudiyyətlər aradan qaldırılmağa başlanılıb. Azərbaycan da may ayının 11-dən xüsusi rejimin qaydalarını mülayimləşdirməyə və məhdudiyyətləri aradan qaldırmağa başlasa da, təəssüflər olsun ki, işlər istənilən kimi getmədi, "COVID-19" xəstəliyinə yoluxma halları artdığı üçün yenidən karantin qaydalarını sərtləşdirməyə qərar verildi.

Ümumiyyətlə, ibadət ocaqlarının, o cümlədən məscidlərin fəaliyyətə başlaması barədə dini icmalarla mütəxəssislərin arasında hər hansısa fikir ayrılığı yoxdur. Onların, həmçinin dindarların yekdil qənaətinə görə, koronavirus pandemiyasının yayılmasını qarşısının alınmasınadək bu məsələdə tələskənliyə yol vermək olmaz.

Ümid edirik ki, yaxın vaxtlarda Azərbaycan koronavirusla mübarizədə daha böyük uğurlar qazanacaq və tezliklə ibadət evləri yenidən dindarların istifadəsinə veriləcək.

**- Yas mərasimlərində karantin qaydalarına riayət edilməsinin səviyyəsi necədir? Hansı bölgələrdə pozuntular müşahidə edilir?**

- Nazirlər Kabineti yanında Operativ Qərargahın 13 mart 2020-ci il tarixli qərarına əsasən bir sıra kütləvi tədbirlər, o cümlədən yas mərasimlərinin keçirilməsinə məhdudiyyətlər nəzərdə tutulub. Dəfn mərasimləri istisna olmaqla yas mərasimləri, ümumiyyətlə, qadağan olunub. Bu barədə, eyni zamanda, Qafqaz Müsəlmanları İdarəsi tərəfindən müxtəlif vaxtlarda din xadimlərinə tövsiyə və tapşırıqlar verilib. Onlara yas mərasimləri və ehsan süfrələrində iştirak etməməklə, əhali arasında bu sahədə maarifləndirmə işləri aparmaları, yəni yas mərasimlərinin şəriət baxımından vacib tərəfləri haqqında izahat vermələri barədə göstəriş olub.

Aparılmış monitorinqlərə və Dövlət Komitəsinə daxil olan məlumatlara görə, ölkədə yas mərasimləri ilə bağlı qadağalara ümumən riayət olunur. İstisna hallarda yas məclislərinin keçirilməsi və ehsan süfrələrinin açılması müşahidə olunur ki, onların da əksəriyyəti bölgələrdə kənd yerlərində qeydə alınır. Təəssüf ki, belə mərasimlərdə koronavirus infeksiyasının yayılması barədə məlumatlar da yayılır.

**- Uzun zamandır dəbdəbəli yas mərasimləri ictimai qınaq obyektidir. Post-pandemiya dövründə yas mərasimlərinin yığcam keçirilməsi ənənəsi saxlanıla bilərmi?**

- Hər şeydən öncə arzumuz odur ki, bu pandemiya dövründən dövlətimiz və xalqımız daha az itki ilə çıxsın. Pandemiya dövrünün yas mərasimlərinin təşkil qaydalarına təsiri ilə bağlı onu qeyd edək ki, bəzi rayonlarda, kəndlərdə yerli əhalinin təşəbbüsü ilə ehsan süfrələrindəki təmtəraq aradan qaldırılıb, yas günlərinin sayı azaldılıb.

Hətta yas mərasimi keçirməyib, ona sərf ediləcək vəsaitlə xeyriyyəçilik edənlər də var. Müşahidələrimizə əsasən deyə bilərik ki, bu tendensiya ildən-ilə artmaqdadır. Yəni yas mərasimlərinin sadələşməsi prosesi davam etməkdədir. İnsanlar pandemiya dövründə yas mərasimlərini təmtəraqlı keçirməyin əhəmiyyətsiz olduğunu gördülər.

**- Zaman-zaman Azərbaycanda dini icmaların qeydiyyatı məsələsinə toxunulur. Dini icmaların qeydiyyatı ilə bağlı hansı prosedurlar mövcuddur?**

- Azərbaycanda dini qurumların dövlət qeydiyyatına alınması "Dini etiqad azadlığı haqqında" Azərbaycan Respublikası Qanunu ilə tənzimlənir. Qanunun 12-ci maddəsinin 2-ci hissəsinə əsasən, dini icmanın dövlət qeydiyyatına alınması üçün azı əlli nəfər yetkinlik yaşına çatmış şəxs və ya onların səlahiyyətli nümayəndələri icmanın təsis protokolu və Nizamnaməsi əlavə olunmuş ərizə ilə dini mərkəzə və ya idarəyə müraciət edir. Ərizəyə habelə vətəndaşlığı, yaşayış yeri və doğum tarixi göstərilməklə dini icmanı təsis edən şəxslərin siyahısı, şəxsiyyətlərini təsdiq edən sənədlərin surəti, dini təlimin əsasları, o cümlədən dini icmanın yaranması tarixi, onun fəaliyyətinin forma və metodları, ənənələri, ailəyə, nikaha və təhsilə münasibət, həmin icmanın üzvlərinin hüquq və vəzifələrinə qoyulan məhdudiyyətlər barədə məlumatlar, habelə "Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında" Azərbaycan Respublikasının Qanununda nəzərdə tutulmuş digər sənədlər əlavə edilərək təqdim edilməlidir.

Dini mərkəz və ya idarə 30 gün ərzində həmin sənədləri öz təqdimatı ilə birlikdə dövlət qeydiyyatına alınması üçün müvafiq icra hakimiyyəti orqanına göndərir. Dini qurumların yenidən dövlət qeydiyyatına alınması prosesi başlayandan (01.09.2009-cu il) bu günə qədər 942 dini qurum qeydiyyatdan keçib. Konfessional baxımdan onların 907-si İslam, 35-i isə qeyri-islam (xristian – 24; yəhudi – 8; krişna – 1; bəhai – 2) təməyüllüdür.

davamı səh. 9

# MÜBARİZ QURBANLI: AZƏRBAYCANDA DİNİ ETİQAD AZADLIĞININ TƏMİN OLUNMASI DİN-DÖVLƏT-CƏMİYYƏT MÜNASİBƏTLƏRİNİN ƏSASINDA DAYANAN MÜHÜM FAKTORDUR

*Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlının Teleqraf.com-a müsahibəsi*

əvvəli səh. 8

**- Ermənistan tərəfindən işğal olunmuş torpaqlarımızda dini-mədəni abidələrimiz dağıdılır. Bu fonda təmir-bərpa işləri adı altında ermənilərin Şuşadakı "Yuxarı Gövhər ağa" məscidinin daxili interyerində ciddi zərər vurması Azərbaycan ictimaiyyətində etirazla qarşılandı. Belə halların qarşısını almaq üçün hansı tədbirlər görülür?**

- Ermənilər xislətlərinə uyğun olaraq maddi-mənəvi sərvətlərimizi daim özününküləşdirməyə çalışır. Buna nail olmadıqda əsrlər boyu Qarabağda və digər işğal olunmuş bölgələrimizdə əcdadlarımızın yaratdıqları abidələrimizi ya məhv etməyə, ya da özgələşdirməyə cəhd edirlər. Bütün dünyada Azərbaycan memarlıq nümunələri özünün xarakterik xüsusiyyəti ilə seçilir. İslam dini ilə bağlı olan tarixi-dini abidələrimiz də bu qəbildəndir. Onların üzərindəki tarixi kitabələr, İslam dininin müqəddəs kitabı olan Qurani-Kərimdən yazı nümunələri ermənilər tərəfindən dəyişdirilir. Burada incə məqam ondan ibarətdir ki, milli memarlığımızın izlərinin silinməsi ilə yanaşı, xəttatlıq nümunələrimiz də dəyişdirilir. Nəticədə qədim memarlıq abidələrimizin interyeri və eksteryeri dəyişdirilməklə bu abidələrin azərbaycanlılara deyil, başqalarına aid olduğunu "sübuta" yetirməyə çalışırlar.

Biz uzun illərdir ki, səlahiyyətlərimiz çərçivəsində işğal altındakı tarixi-dini abidələrimizin vəziyyəti ilə bağlı çoxsaylı işlər görürük. Müxtəlif vaxtlarda həmin abidələrin fotoşəkillərindən ibarət çoxsaylı sərgilər keçirmişik. Bu sərgilər təkcə ölkəmizdə deyil, eyni zamanda müxtəlif xarici ölkələrdə də təşkil edilib.

Dünyanın ən nüfuzlu beynəlxalq təşkilatlarının ofislərində sərgilər təşkil etmişik. Bu fotosərgilərdə Azərbaycanın tarixi və müasir dini abidələri ilə yanaşı, Qarabağdakı adibələrimizin fotostendləri ayrıca yer alıb. İşğal altındakı torpaqlarımızda olan tarixi-dini abidələrimizlə bağlı kitablar dərc edilib. İngilis, alman, rus, ərəb və sair dillərə tərcümə edilərək beynəlxalq tədbirlərdə ölkəmizə gələn qonaqlara, xaricdə keçirdiyimiz tədbirlərdəki nüfuzlu ictimai-siyasi xadimlərə və elm adamlarına paylanılıb.

Bütün bunlarla yanaşı, istər ölkəmizə gələn qonaqlarla görüş zamanı, istərsə də xaricdəki çıxışlarımızda mövzularımızın prioritetlərindən birini məhz işğal altındakı tarixi-dini abidələrimizin aqibəti təşkil edir.

**- Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi tərəfindən işğal altındakı torpaqlarımızda tarixi-dini abidələrin durumu ilə bağlı beynəlxalq təşkilatlar qarşısında hansı məsələlər qaldırılıb?**

- Az öncə qeyd etdiyim sərgilərin keçirilməsi və kitabların yayılmasında əsas məqsəd işğal altındakı abidələrə qarşı vandalizm faktlarını dünya ictimaiyyətinin diqqətinə bir daha çatdırmaqdır. Bütün görüşlərimizdə, səfərlərimizdə indi tarixi-dini ibadətgahlarda aparılan "təmir" işlərinin əsl mahiyyətini izah etməyə çalışırıq. Necə ola bilər 30 ilə yaxındır ki, hər cür təhqir edilən, dağıdılan bu abidələrimizi birdən-birə təmir etməyə başladılar?

Burada məqsəd aydındır. Keçirdiyimiz görüşlərdə təkidlə beynəlxalq konvensiyaların norma və tələblərinə zidd olan bu özbaşınalığın dayandırılmasını tələb etmişik.

Ermənilərin işğal olunmuş Azərbaycan torpaqlarında tarixi-dini abidələrimizə qarşı saxtakarlıq və cinayət əməlləri beynəlxalq səviyyədə təsbit olunmuş "Silahlı münaqişə baş verdikdə mədəni dəyərlərin qorunması haqqında" 1954-cü il Haaqa Konvensiyasının, "Arxeoloji irsin mühafizəsi haqqında" 1992-ci il Avropa Konvensiyasının və "Ümumdünya mədəni və təbii irsin mühafizəsi haqqında" UNESCO-nun 1972-ci il Konvensiyasının tələblərinə ziddir.

Məhz bu məqamla bağlı dəfələrlə Dövlət Komitəsi tərəfindən beynəlxalq təşkilatlara müraciətlər olunub. Azərbaycan üçün həyati əhəmiyyət daşıyan bu məsələyə beynəlxalq ictimaiyyətin biganə qalmaması, işğalçı Ermənistan hakimiyyətinin işğal olunmuş Azərbaycan torpaqlarında tarixi saxtalaşdırmaq əməllərinin qarşısının alınmasında ədalətli mövqe nümayiş etdirməsinə dair gözləntilərimiz olduğunu ifadə etmişik.

Qeyd edim ki, bu gün işğal altındakı torpaqlarımızda təsbit olunan tarixi-dini abidələrin sayının 403 olduğu haqda məlumat var. Onlardan 67-si məscid, 144-ü məbəd, 192-si isə ziyarətgahlardır.

**- Hazırda ölkədə dini mühiti tam sabit hesab eləmək olarmı?**

- Bu gün Azərbaycan bütün dünyada tolerant və multikultural dəyərlərə sahib bir ölkə kimi tanınmaqdadır. Respublikamızın yerləşdiyi mürəkkəb geosiyasi vəziyyətə baxmayaraq, burada müxtəlif dini konfessiya və cərəyanlar arasında hansısa qarşıdurma halları müşahidə edilmir. Əlbəttə, Vətənimizdə bu cür sabitliyin müşahidə edilməsi olduqca təqdirəlayiq haldır.

Bütün bunlara baxmayaraq, Azərbaycandakı mövcud vəziyyəti gərginləşdirməyə, dindən siyasi məqsədlər üçün istifadə etməyə çalışanlar olub və olacaq. Bu cür xoşagəlməz halların qarşısını almaq üçün Dövlət Komitəsi aidiyyəti dövlət qurumları ilə birlikdə fəaliyyət göstərməkdə davam edir. Mənfi və xoşagəlməz hallarla mübarizə aparmaq üçün qanunauyğun bütün addımlar atılır.

**- Bir müddət öncə Azərbaycandan Əfqanıstan və Suriyaya gedib müxtəlif qruplaşmalara qoşulanlar vardı. Bu axın dayanıbmı?**

- Ümumiyyətlə, Azərbaycandan qeyd etdiyiniz ölkələrdəki müxtəlif silahlı qruplaşmalara qoşulanların sayı digər müsəlman ölkələri ilə müqayisədə çox az olub. Bu, hər şeydən əvvəl Azərbaycan cəmiyyətində ənənəvi dini dəyərlərin möhkəm olmasından, tolerant və multikultural mühitdən irəli gəlir.

Eyni zamanda, Azərbaycanda radikal yönümlü dini qruplara qarşı dövlət səviyyəsində inzibati, ideoloji və maarifçilik vasitəsi ilə aparılan mübarizə bu yöndə öz bəhrəsini vermişdir. Xüsusilə son illərdə həyata keçirilən qabaqlayıcı tədbirlər nəticəsində, demək olar ki, radikal dini qruplaşmalara qoşulma faktları qeydə alınmayıb.

**- Sələfilərlə (vəhhabilər) bağlı narahatlıqlar aradan qalxıbmı? Ümumən "Əbu Bəkr" məscidinin taleyi necə olacaq?**

- Azərbaycan dövlətinin narahatlığı hər hansısa dindən və ya məzhəbdən deyil. Ölkədə dinindən və məzhəbindən asılı olmayaraq bütün vətəndaşların dini etiqad azadlığı dövlət təminatı altındadır. Ümumiyyətlə, radikal ekstremist dini qrupların fəaliyyətini hansısa dinə və ya məzhəbə şamil etmək doğru deyil. Bu gün dünyada, eyni zamanda Azərbaycanda bəzi dinlər və məzhəblərin nümayəndələri arasında radikal-ekstremist düşüncəli şəxslərə rast gəlmək mümkündür.

Azərbaycan dövlətinin dini radikalizm və ekstremizmə qarşı mübarizə sahəsində yürütdüyü siyasətin kökündə məhz belə şəxslərin və ya qrupların müəyyənləşdirilməsi, onlara qarşı ideoloji, siyasi və iqtisadi mübarizə aparmaq dayanır. Bunun üçün mütəmadi olaraq qanunvericilik aktları təkmilləşdirilir, maarifləndirmə sahəsində mühüm addımlar atılır. Zərurət yarandığı təqdirdə inzibati tədbirlər həyata keçirilir.

Nərimanov rayonu ərazisindəki "Cümə" (Əbu Bəkr) məscidinin yenidən fəaliyyətə başlaması məsələsi ilə bağlı bildiririk ki, Dövlət Komitəsinə daxil olan məlumatlara görə məscidin binası qəzalı vəziyyətə düşüb. Qeyd edilən şərtlər daxilində bu gün Nərimanov rayonu "Cümə" məscidinin fəaliyyətə başlaması mümkün deyil.

**- Ölkədə dini maarifləndirmə işi kontekstində orta və ali məktəblərdə gənc nəslə sağlam dini biliklərin verilməsi məsələsi reallaşa bilərmi?**

- Orta və ali təhsil müəssisələrində dini biliklərin verilməsinə müxtəlif yanaşmalar var. Bu, təbii qarşılanmalıdır, çünki din çox həssas sahədir və ona hər bir şəxs, hər bir qrup və yaxud hər bir qurum öz prizmasından yanaşır.

Digər tərəfdən isə din bəziləri üçün sadəcə inancdır, bəziləri ona yalnız mədəniyyət, adət-ənənə kimi yanaşır, bəziləri üçün əsasən təhlükəsizlik məsələsidir və s. Ancaq istənilən halda məsələyə kompleks yanaşılmalıdır. Bir məsələni dəqiqləşdirmək lazımdır: söhbət təhsil müəssisələrində şəriətin tədrisindən gedirsə, bu, birmənalı şəkildə qeyri-mümkündür. Çünki təhsil sahəsində dövlət siyasətimizin əsas prinsipləri, qanunlarımız var. Bu prinsiplər milli və ümumbəşəri dəyərlərin, şəxsiyyətin azad inkişafının, insan hüquq və azadlıqlarının, təhlükəsizliyin, ətraf mühitə qayğının, insanlara hörmətin, dözümlülüyün prioritet kimi qəbul olunmasını ehtiva edir.

Eyni zamanda, təhsil alanların azad düşüncə ruhunda tərbiyə edilməsi, milli və ümumbəşəri dəyərlərin qorunması və dialektik vəhdətin təmin edilməsi əsasında dünyəvi təhsil sisteminin yaradılması və inkişaf etdirilməsi kimi məsələlər də həmin prinsiplərin təməlini təşkil edir. Bu kontekstdə verilən təhsilin əsas məqsədlərindən biri xalqının ənənələrinə, demokratiya prinsiplərinə, insan hüquq və azadlıqlarına hörmət edən, vətənpərvərlik və azərbaycançılıq ideyalarına sadiq olan, milli-mənəvi və ümumbəşəri dəyərləri qoruyan, inkişaf etdirən vətəndaş yetişdirməkdir.

Azərbaycan dünyəvi-hüquqi dövlətdir və din haqqında biliklərin verilməsinin əsas qayələrindən biri cəmiyyətdə tolerantlığın, həmrəyliyin, xeyirxahlıq və sülhsevərliyin möhkəmlənməsi, vətəndaşlarımızın dini fanatizm, radikalizm və ekstremizm kimi mənfi təmayüllərdən maksimum müdafiə edilməsidir.

Konkret olaraq sualınıza gəldikdə isə onu deyə bilərəm ki, "Dini etiqad azadlığı haqqında" Qanuna görə, Azərbaycan Respublikasında dövlət təhsil sistemi dindən ayrıdır. Dinşünaslıq, dini-idraki, dini-fəlsəfi fənlər, müqəddəs dini kitabların əsasları ilə tanışlıq dövlət təhsil müəssisələrinin tədris proqramına daxil edilə bilər və biz bunu praktikada görürük.

Hazırda "Həyat bilgisi" fənni çərçivəsində orta məktəblərdə müəyyən dini biliklər də öyrədilir və Dövlət Komitəsi bu biliklərin məzmunu ilə bağlı aidiyyəti qurumlarla sıx əməkdaşlıq edir. Ali təhsil müəssisələrində isə tədris olunan "Multikulturalizmə giriş" fənni ilə tələbələrə dinlərin tarixi, onların inanc sistemi, ictimai münasibətlərdəki rolu və sair haqqında ətraflı məlumat verilir.

Bundan başqa, bilirsiniz ki, cənab Prezidentin Sərəncamı ilə yaradılmış Azərbaycan İlahiyyat İnstitutu bu sahədə ixtisaslaşmış təhsil ocağıdır və inanıram ki, o, yaxın gələcəkdə ölkəmiz üçün peşəkar ilahiyyatçıların, dinşünasların hazırlanması işinə mühüm töhfələr verəcək.

# TOVUZDAN BAŞLAYAN TƏXRİBATLAR VƏ YA ERMƏNİ VƏHŞİLİYİNİN KÖHNƏ-YENİ FORMASI

*Əzəldən qoltuq altında, böyük dövlətlərin, imperiyaların himayəsində yaşamış ermənilərin fürsət tapan kimi öz bədnam xislətlərini nümayiş etdirməsi faktlarını toplasaq, qalaq-qalaq kitab edər. Çünki yalançılıq, riyakarlıq, hiyləgərlik, satqınlıq və terrorçuluq erməni genetikasının təməlindədir, onlar bunu dövlət siyasəti kimi mənimsəyiblər və bu gün də o strategiyanı davam etdirirlər. İyulun 12-də Ermənistan silahlı qüvvələrinin atəşkəs rejimini pozaraq Azərbaycan-Ermənistan sərhədinin Tovuz istiqamətində sərhəd qoşunlarımızın mövqelərini və sərhədyanı kəndlərimizi artilleriya atəşinə tutması, nəticədə bir mülki vətəndaş və on iki hərbçimizin şəhid olması da elə "həmin dalğa, həmin koordinatları" işarə verdi.*

**Niyə Tovuz?**

Bugünədək düşmən təxribatlarının dəfələrlə şahidi olmuşuq. Ancaq indiyə qədər bu kimi genişmiqyaslı əməliyyatlara səbəb olan təxribatların əksəriyyəti cəbhə bölgəsində müşahidə edilib. Bunun sonuncu nümunəsi 2016-cı ilin Aprel döyüşləri idi ki, onda da düşmən layiqli cavabını aldı və rəşadətli ordumuz işğal edilmiş torpaqlarımızın bir qismini geri qaytardı. Ancaq bu dəfə təxribat cəbhədən xeyli aralıda – Dağlıq Qarabağ münaqişəsinin yaşandığı ərazilərə aid olmayan Tovuzda törədildi. Niyə məhz bu rayonun, ümumiyyətlə, niyə məhz dövlət sərhədlərinin seçilməsi sual doğurmaya bilməz və bununla bağlı ekspertlərin rəylərini üç başlıq altında birləşdirə bilərik.

*Daxili gərginliyi ört-basdır etmək.* Ermənistanın hazırkı iqtidarının öz sələflərinə qarşı "səlib yürüşünə" başlaması, müxalifətdə ikən verdiyi vədlərə xilaf çıxması, qonşu ölkələrlə münasibətləri daha da kəskinləşdirməsi erməni cəmiyyətində daxili gərginliyin fitilini yandırmışdı. Yeni növ koronavirus pandemiyası ilə mübarizədə faktiki məğlubiyyət isə bu alovun üzərinə tökülən benzin effekti yaratdı. Təbii ki, müxalifətdə ikən cəmiyyətə demokratiyadan, insan haqlarından, iqtisadi yüksəlişdən və s.-dən sicilləmə nağıllar danışmaq asandır. Əsas məsələ bu vədləri siyasi iradə ortaya qoymaqla həyata keçirməkdir. Hakimiyyətə gəldiyi gündən siyasət deyil, küçə adamı olduğunu göstərən Nikol Paşinyanın da sələfləri kimi bu iradəyə sahib olmadığını erməni cəmiyyəti anlamağa başlamışdı. Tovuzdakı təxribatdan əvvəl Ermənistanda xalqın getdikcə sayı artan mitinqləri, etiraz aksiyaları bunun sübutu idi. Və Paşinyan bu aqressiyanın qarşısında çox tab gətirə bilməyəcəyini anladığı üçün diqqəti ölkə daxilindəki gərginlikdən uzaqlaşdırmaq niyyəti ilə cəbhədən kənarda təxribata əl atdı.

*Tovuzun iqtisadi-coğrafi mövqeyi.* Ekspertlərin fikrincə, Azərbaycan qazının Avropaya nəqlinin başlanılmasına bir neçə ay qalmış belə bir təxribata əl atması heç də təsadüfi deyil. Belə ki, Tovuz rayonu iri regional layihələrin reallaşması baxımından strateji əhəmiyyət kəsb edir. Dövlət sərhədinin bu hissəsində strateji yüksəklikləri ələ keçirməklə ermənilər ölkəmiz üçün həyati əhəmiyyət kəsb edən enerji və nəqliyyat infrastrukturuna ciddi təhdidlər yaratmaq niyyətində idi. Unutmayaq ki, Bakı-Tbilisi-Ceyhan neft boru kəməri, Cənub Qaz Dəhlizi, Bakı-Supsa neft boru kəməri, Bakı-Tbilisi-Qars strateji dəmir yolu, Bakı-Tbilisi yol magistralı da təxribatın törədildiyi bölgənin yaxınlığındadır.

*Digər ölkələri Azərbaycanla üz-üzə qoymaq.* Mütəxəssislər hesab edirlər ki, Ermənistanın sərhəd bölgəsində təxribat törətməsinin üçüncü səbəbi Kollektiv Təhlükəsizlik Müqaviləsi Təşkilatına (KTMT) üzv ölkələr başda olmaqla, digər dövlətləri Azərbaycanla üz-üzə qoymaq idi. Məlumdur ki, 1992-ci ildə yaradılan və hazırda altı üzvü (Rusiya, Belarus, Özbəkistan, Qırğızıstan, Tacikistan və Ermənistan) olan təşkilatın nizamnaməsinə görə, üzv ölkələrdən hansısa birinə qarşı təhlükə yaranacağı təqdirdə bu, təşkilata üzv olan digər ölkələrə qarşı da aqressiya kimi qəbul edilir. Məhz buna görə də Paşinyan təxribatı törətdikdən dərhal sonra haray-həşir qoparmağa başladı, KTMT-nin təcili iclasının çağırılmasını istədi. Ancaq onun siyasi səbatsızlığı burada da özünü göstərdi. Bədnam erməniliyin müasir üzü olan Nikol iqtidarı ələ keçirən kimi bu təşkilatı təhqir etdiyini, təşkilatın ovaxtkı baş katibi olan həmyerlisini biabırçı şəkildə geri çağırmasını, Belarus nümayəndəsinin KTMT-yə yeni baş katib təyin olunmasının əleyhinə çıxmasını nədənsə "unutdu" və "quyruğu qapı arasında" qalan kimi təşkilata yalvarmağa, ondan mədət ummağa başladı. Ancaq bu yalvarışların nəticəsi, əslində isə nəticəsizliyi təkcə Paşinyanın deyil, bütövlükdə Ermənistanın növbəti iflası idi. Məlumdur ki, Azərbaycan KTMT-yə üzv olan ölkələr ilə çox sıx qarşılıqlı əməkdaşlıq edir və bu məqamda həmin ölkələrin forpost, marionet Ermənistana görə Azərbaycanla üz-üzə duracağına inanmaq əbləhliyin apogeyi idi. Necə ki, Prezident İlham Əliyev Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında bunu vurğulamışdı: **"KTMT-nin buna nə dəxli var? Birincisi, Azərbaycan, bir daha demək istəyirəm ki, Ermənistanın dövlət sərhədini pozmayıb, təxribat törətməyib, Ermənistan ərazisinə keçməyib. Belə olan halda KTMT-nin bu işə nə dəxli ola bilər? Bu bir. İkincisi, bu addım onların acizliyini, qorxaqlığını göstərir. Onu göstərir ki, Azərbaycan qarşısında təkbaşına duruş gətirə bilməyəcəklər və onu bilirlər. Biz də bunu bilirik. KTMT-yə müraciət etmək onların qorxaqlığının növbəti təzahürüdür... KTMT-nin Ermənistandan başqa bütün üzvləri bizim dostlarımızdır. İndi xarici fondlardan maliyyələşən, hakimiyyət nümayəndələrinin demək olar ki, hamısının SOROS fondunun və buna oxşar fondların tör-töküntüləri olan bir dövlətə KTMT ölkələrinin münasibəti necə olmalıdır?"**. Elə Rusiya Dövlət Dumasının MDB məsələləri, Avrasiya inteqrasiyası və həmvətənlərlə iş üzrə komitəsinin sədri Leonid Kalaşnikov bunu açıq şəkildə bəyan etdi ki, *"KTMT-nin bu münaqişəyə qoşulması cinayət olar. Çünki bu təşkilat bu və digər qonşularımızla müharibə etmək üçün yaradılmayıb. Ona görə də bu söhbətlərə son qoyulmalıdır. Kimsə KTMT-ni Qarabağ münaqişəsinə cəlb etmək istəyirsə, bilsin ki, buna heç kəs, heç vaxt nail olmayacaq. KTMT-yə daxil olan ölkələr də çox gözəl bilir ki, bu təşkilat nə üçün yaradılıb. KTMT-nin Azərbaycanla müharibəyə qoşulacağını düşünmək belə axmaqlıqdır. Heç kəs buna getməz. Bunu unudun"*.

Ermənistanın KTMT-dən yardım istəməsinin və heç bir dəstək ala bilməməsinin fonunda dövlətimizin beynəlxalq imici yenə öz sözünü dedi. Tovuz istiqamətində baş verən yeni hərbi toqquşmalardan sonra Azərbaycanın müttəfiqləri, tərəfdaşları ölkəmizin müdafiəsinə qalxdılar. Bu mənada ən böyük dəstək qardaş Türkiyədən gəldi. Bu ölkənin siyasi və hərbi rəhbərliyi birmənalı və qəti, özü də sərt şəkildə Azərbaycanı dəstəkləyən bəyanatlar verdilər. Daha bir dəstək dost Pakistandan gəldi. Eyni zamanda, Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurası, 57 dövlətin birləşdiyi İslam Əməkdaşlıq Təşkilatı Azərbaycanı dəstəkləyən bəyanatlar verdilər. Üzvlərinin sayına görə BMT-dən sonra dünyanın ən böyük siyasi təşkilatı olan Qoşulmama Hərəkatının Ermənistanın hərbi təxribatı ilə bağlı qəbul etdiyi kommünike isə 120 ölkənin Azərbaycana dəstəyinin ifadəsi idi. Digər tərəfdən İtaliya parlamentinin üzvlərinin Ermənistanın Azərbaycana qarşı hərbi təcavüzünü pisləyən, eləcə də Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyən bəyanatlarla çıxış etmələri Paşinyana, onun timsalında Ermənistana beynəlxalq müstəvidə vurulan sillə idi. Bu məqamda Azərbaycan Prezidentinin Nazirlər Kabinetinin 2020-ci ilin birinci yarısının sosial-iqtisadi inkişafının yekunlarına və qarşıda duran vəzifələrə həsr olunan iclasında söylədiklərini xatırlamaq yerinə düşər: **"... digər ölkələr, bəzi Avropa ölkələri öz rəsmi nümayəndələri vasitəsilə Azərbaycana dəstək ifadə etdilər. İndi baxın, görün Ermənistana kim dəstək göstərdi? Görməmişəm. Burada da təcrid vəziyyətindədir. Çünki hamı bilir ki, Azərbaycan haqlıdır. Bir çoxları bizim fəaliyyətimiz nəticəsində biliblər ki, bu çirkin təxribatı Ermənistan törətmişdir"**.

**Bumeranq effektli zərbə**

Ermənistanın qəfil hücumunun qarşısını almağımız, ələ keçirməyə cəhd göstərdikləri yüksəkliklərə nəzarəti daha da artırmağımız, düşmən mövqelərini darmadağın edərək canlı qüvvələrini və çox sayda hərbi texnikasını məhv etməyimiz Azərbaycan Ordusunun yüksək döyüş ruhuna, ən müasir silah sistemlərinə və kadr ehtiyatlarına sahib olduğunu növbəti dəfə sübut etdi. Bu döyüşlər işğalçılara növbəti dəfə göstərdi ki, xalqımız öz torpaqlarının işğalı ilə heç vaxt barışmayacaq və ədaləti mütləq bərpa edəcək. Ermənilər bu təxribatla nəyəsə nail olmağa çalışırdılar, ancaq zaman göstərdi ki, onların bu istəkləri nəinki ürəklərində qaldı, həm də bumeranq effekti ilə ciddi zərbə aldılar. Belə ki, baş verənlər ölkəmizdə bir daha güclü milli birlik və həmrəylik olduğunu göstərdi. Cəmiyyət olaraq ümummilli məsələmizdə - torpaqlarımızın düşmənlərdən qorunması prosesində möhtəşəm birlik nümayiş etdirdik. Həm respublikamızın hər bir guşəsində, həm də ölkəmizin hüdudlarından kənarda ordumuza, Ali Baş Komandana dəstək aksiyaları keçirildi, 50 mindən çox vətəndaşımız könüllü şəkildə ordu sıralarına qatılmaq üçün müraciət etdi və proses bu gün də davam edir. Təqdirəlayiq haldır ki, ölkəmizdə fəaliyyət göstərən siyasi partiyaların da mütləq əksəriyyəti bu məsələyə öz mövqelərini bildirdilər. Müstəqillik tariximizdə ilk dəfə olaraq 43 siyasi partiya öz aralarında olan fikir ayrılığını bir kənara qoyaraq həmrəylik nümayiş etdirdi və *"Möhtərəm Prezidentimiz və Ali Baş Komandanımızı əmin edirik ki, hər birimiz Vətənimizin şərəfi və namusu yolunda onun istənilən tapşırığını hər an yerinə yetirməyə hazır olan müsəlləh əsgərik"*, - deyə bəyanat verdi. Təəssüf ki, bu prosesdə sapı özümüzdən olan baltaların bədnam hərəkətlərini də gördük, ancaq bu yazıda onların göstərdikləri "ayı xidməti" haqqında da danışmaq fikrindən uzağıq, çünki kimin kim olduğunu xalqımız yaxşı bilir(di).

Tovuz təxribatından sonra xalqımızın sosial şəbəkələrdə nümayiş etdirdiyi milli həmrəyliyi də xüsusi vurğulamaq lazımdır. Döyüşlərin aktiv fazaya keçdiyi günlərdə ermənilərin və ermənipərəstlərin öz çirkin təxribatlarını internet məkanına daşıdıqlarının da şahidi olduq. Bunlar bir daha göstərdi ki, təkcə səngərdə yox, belə nəzarətsiz platformalarda da hər zaman ayıq-sayıq olmalı, yalnız rəsmi mənbələrimizin verdikləri məlumatlara istinad etməli və həmin informasiyaların yayılmasına çalışmalıyıq.

**Səngərdən qaçanların yeni təxribatı: təklə, vur, qaç...**

Döyüş və diplomatiya müstəvisində məğlub olan ermənilər artıq beynəlxalq səviyyədə terrora əl atmağa başlayıblar. Bunu bir sıra ölkələrdə Azərbaycan diasporunun üzvlərinə, diplomatik korpuslara, xaricdə yaşayan azərbaycanlılara və Azərbaycanın haqq işini müdafiə edənlərə qarşı törədilən cinayət tərkibli hücumlar da təsdiqləyir. Təbii ki, məqsədləri bəllidir: bizi həqiqətləri dünyaya çatdırmaq üçün istifadə etdiyimiz sivil yollardan çəkindirmək, dinc aksiyalarımızın iştirakçılarını təxribata çəkərək ölkəmizin imicini zədələmək, Azərbaycanın Dağlıq Qarabağla bağlı siyasətini başqa müstəviyə çəkmək, əsas hədəfdən yayındırmaq və s. Bir sözlə, döyüşü səngərdən uzaqlaşdırmaq. Bunun üçün ermənilər başda "təklə, vur, qaç" olmaqla xislətlərindəki bütün ləyaqətsiz imkanları işə salıblar. Şübhəsiz, hər birimiz anlamalıyıq ki, bu məqamda provokasiyalara uymamaq, təmkinli olmaq və düşmənin hiyləsini ifşa etmək əsas şərtdir. Ölkəmizin Birinci vitse-prezidenti Mehriban xanım Əliyevanın bu hadisələrlə bağlı sonuncu müraciətində bildirdiyi kimi, **"...Qoy, heç kim şübhə etməsin ki, heç bir provokasiya bizi haqq yolundan döndərməyə məcbur edə bilməz. Biz milyonlarlayıq, bizim bir məqsədimiz var – Vətəni müdafiə etmək, onun ərazi bütövlüyünü və tarixi həqiqəti bərpa etmək. Ona görə ki, Qarabağ Azərbaycandır və nida işarəsi!"**

Bir sözlə, 2016-cı il Aprel qələbəsi, 2018-ci il Günnüt zəfəri və 2020-ci il İyul döyüşlərində düşmənə layiqli cavab və sarsıdıcı zərbələr, bir neçə gün ərzində 50 mindən çox könüllünün cəbhəyə getmək üçün müraciəti, ABŞ Konqresinin Qeydiyyat Komitəsində Ermənistanın Azərbaycan ərazisini işğal faktını dövlət səviyyəsində ilk dəfə tanıyan 296 saylı düzəlişi qəbul etməsi, Azərbaycanın haqq səsinin beynəlxalq ictimaiyyət tərəfindən dəstəklənməsi və s. – bütün bunlar ikili standartların tətbiq edildiyi müasir dövrdə qət etdiyimiz uzun yolda qazandığımız uğurlardır. O yol ki bizi artıq addım-addım deyil, sürətlə Böyük Qələbəyə aparır.

**Saleh Arslan**

# AZƏRBAYCAN DÖVLƏTİ ƏRAZİ MƏSƏLƏSİNDƏ BUNDAN SONRA DA HEÇ BİR GÜZƏŞTƏ GETMƏYƏCƏK

Məlum olduğu kimi, iyulun 12-də günorta saatlarından başlayaraq Ermənistan silahlı qüvvələrinin bölmələri Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində atəşkəs rejimini kobud şəkildə pozaraq artilleriya qurğularından istifadə etməklə mövqelərimizi atəşə tutub. Ancaq Azərbaycan Ordusunun həyata keçirdiyi əks-tədbirlər nəticəsində düşmən zərərsizləşdirilərək geri otuzdurulub, onun canlı qüvvəsinə və hərbi texnikasına ciddi zərər yetirilib. Lakin cəbhədən gələn xəbərlər göstərir ki, düşmən ordusu hər an sakitliyi poza, Azərbaycanın hərbi və mülki əhalisini yenidən hədəfə ala bilər. Görünən budur ki, beynəlxalq ictimaiyyət Azərbaycan-Ermənistan sərhədində gərginləşmiş vəziyyəti diqqətlə izləyir. Beynəlxalq strukturlar və müxtəlif dövlətlərin rəsmi nümayəndələri tərəflər arasında açıq şəkildə rəsmi Bakını dəstəklədiklərini bəyan ediblər. Bütün bunların fonunda ölkəmizin qərbində baş verən qanlı döyüşlər, bunun arxasında duran səbəb və məqsədlər, eyni zamanda Azərbaycan tərəfinin gücü və qətiyyəti nəticəsində düşmən ölkəyə vurulan zərbələrlə bağlı müzakirələr davam edir.



Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin sədri Mübariz Qurbanlı mövzu ilə bağlı mətbuata açıqlamasında bildirib ki, yulun 12-də Ermənistanın atəşkəs rejimini kobud şəkildə pozub Azərbaycan-Ermənistan dövlət sərhədinin Tovuz rayonu istiqamətində hərbi təxribata əl atması düşmənin işğalçılıq siyasətindən əl çəkmədiyini bir daha göstərdi. Azərbaycan Ordusu sarsıdıcı atəş zərbələri endirərək Ermənistanın xeyli sayda hərbi canlı qüvvəsini, döyüş və nəqliyyat texnikasını, mühüm obyektlərini məhv etməklə, onun mənfur niyyətinin qarşısını qətiyyətlə aldı. Döyüşlərdə düşmənlə böyük fədakarlıqla vuruşan hərbiçilərimizdən qəhrəmancasına şəhid olanlar da oldu, lakin Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali Baş Komandanı İlham Əliyevin göstərişi ilə Milli Ordumuz onların intiqamını aldı. Dövlət Komitəsinin sədri vurğulayıb ki, Azərbaycanın müxtəlif yaş həddində olan vətəndaşları torpaqlarımızı müdafiəni özlərinin şərəfli borcu bilərək, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin Ali baş komandanı İlham Əliyevin çağırışına dəstək məqsədilə Səfərbərlik və Hərbi Xidmətə Çağırış üzrə Dövlət Xidmətinə qeydiyyat üçün çoxsaylı müraciət edirlər: "Bundan əlavə, Qarabağ müharibəsində iştirak etmiş, ehtiyatda olan keçmiş zabitlər, gizirlər və əsgərlər də Azərbaycan Prezidentinə müraciət edərək, müharibə başladığı təqdirdə torpaqlarımızın azadlığı və bütövlüyü naminə ön cəbhədə döyüşməyə hazır olduqlarını bildirirlər. Bütün bunlar milli birliyin, xalq-dövlət-ordu vəhdətinin parlaq ifadəsidir".



Millət vəkili Eldar İbrahimov isə mətbuata açıqlamasında deyir, Tovuz bölgəsində yaşananlar bir daha göstərdi ki, Azərbaycan dövləti, Azərbaycan Ordusu Qarabağ, torpaq, ərazi məsələsində bu günə qədər olduğu kimi, bundan sonra da heç bir güzəştə getməyəcək. Ermənistanın və onun havadarlarının qarşısında geri çəkilməyib, geri çəkilmir, bundan sonra da geri çəkilməyəcək. Tökülən şəhid qanlarını yerdə qoymayıb və qoymayacaq, onların qisasını alıb və bundan sonra da alacaq. O qeyd edir ki, işğalçı dövlət və onu üzərimizə qaldıranlar bugünlərdə baş verənlərdən nəticə çıxarmaslar, daha betərini, Aprel döyüşlərinin, eləcə də, son döyüşlərinin daha ağırını və amansızını yaşayacaqlar: "Uçurumun kənarındadırlar, uçurumun dibinə yuvarlanacaqlar və yuvarlandırılacaqlar. Buna güclü və qüdrətli Azərbaycanın, Azərbaycan Ordusunun hər cür imkanı, potensialı var. Ən əsası ölkə Prezidentinin, Ali Baş Komandan cənab İlham Əliyevin cəsarəti, qətiyyəti, iradəsi ortadadır".



Milli Məclisin deputatı, akademik Nizami Cəfərov də hesab edir ki, Tovuz döyüşləri Azərbaycan Ordusunun gücünü bir daha göstərdi: "Bu döyüşlər işğalçılara növbəti xəbərdarlıqdır ki, Azərbaycan öz torpaqlarının işğalı ilə heç vaxt barışmayacaq. Erməni tərəfi başa düşməlidir ki, sülh yolu ilə, xoşluqla torpaqlarımızdan çıxmasa, ordumuz ona öz yerini göstərəcək. Artıq ordumuzun gücünə də yaxşı bələddirlər". Azərbaycan xalqının dövlətimizə və ordumuza güclü dəstəyindən də danışan millət vəkili bildirib ki, Azərbaycan xalqının ümummilli məsələlərdə vahid mövqedən çıxış etməsinin dəfələrlə şahidi olmuşuq. Bu da son nəticədə dövlətimizin gücünü artıran mühüm strateji faktor qismində çıxış edir.



Digər millət vəkili Vahid Əhmədov da ölkə daxilindəki proseslərə toxunaraq qeyd edib ki, bu məsələdə xalq birmənalı şəkildə Ali Baş Komandanın yanındadır: "Çünki dövlət başçısının apardığı siyasətdə əsas məqsəd Azərbaycan torpaqlarını işğaldan azad etməkdir. Amma mən çox təəssüf edirəm ki, "beşinci kolon" da sakit oturmur. İndi onların yavaş-yavaş adları açıqlanır. Hesab edirəm ki, Dövlət Təhlükəsizlik Xidməti bu işlə ciddi məşğul olmalıdır. Bunları, ümumiyyətlə, təmizləməliyik". V.Əhmədov başqa bir məqama da diqqət çəkib, onun sözlərinə görə, son hadisələrdən sonra biz bir daha gördük ki, bu məsələdə Azərbaycanı açıq və qəti müdafiə edən, bizim yanımızda olan iki dövlət var: "Türkiyə və Pakistan. Mən hesab edirəm ki, bu iki dövlətlə ciddi hərbi əlaqələr qurulmalıdır, hərbi müqavilələr imzalanmalıdır və Qarabağı azad etməliyik, başqa çıxış yolumuz yoxdur. Yoxsa ATƏT-dir, BMT-nin qətnamələridir - onlara arxayın olmaq olmaz. Düzdür, bunlar da siyasi cəhətdən vacibdir. Amma ATƏT-in Minsk Qrupu vecsiz bir təşkilatdır, biz onlardan müsbət nəsə gözləmirik. Yaxşı hal oldu ki, ABŞ konqresmenləri Azərbaycanın xeyrinə qərar qəbul etdilər, bu da bizim üçün çox vacib məsələdir. ABŞ ilk dəfə Ermənistanın işğalını tanıdı. Necə ki, Ukrayna, Moldova və Gürcüstanda işğal faktını tanıyırdılar, Azərbaycan ərazilərinin də Ermənistan tərəfindən işğal olunduğu Konqress səviyyəsində qəbul edildi".



Millət vəkili Musa Qasımlı isə diqqəti başqa məqama çəkib. Onun sözlərinə görə, Qarabağ cəbhəsində Azərbaycan qarşısında tab gətirə bilməyəcəyini bilən Ermənistan təxribat törədib harayhəşir qopartmaq və üzv olduğu Kollektiv Təhlükəsizlik Müqaviləsini buraya cəlb etmək niyyəti güdüb: "Ancaq Ermənistan anlamadı ki, həmin təşkilata daxil olan dövlətlərin Azərbaycan Respublikası ilə sıx dostluq münasibətləri mövcuddur. Ermənistan bu təşkilatda üzv olsa da, Rusiyanın ayaqlarının altını qazdığı, Belarusa az qala düşmən ölkə kimi baxdığı, digər ölkələri isə qısqandığı üçün etdiyi müraciətinə heç "milçək vızıltısı" qədər də diqqət yetirilmədi. Bu məsələdə də Yerevanın istəyi gözündə qaldı". M.Qasımlı deyir ki, Ermənistanın Tovuz və Qazax rayonları istiqamətindən hücuma keçməkdə əsas məqsədlərindən biri də o bölgədəki yüksəklikləri işğal edib Bakı – Tbilisi – Ceyhan əsas ixrac neft boru kəməri, Bakı – Tbilisi – Ərzurum qaz boru kəməri, Böyük İpək Yolu, Bakı – Tbilisi – Qars dəmiryolunun keçdiyi əraziləri təhlükə qarşısında qoymaq olub. Lakin Azərbaycan ordusu Ermənistanın bu istəyini də ürəyində qoydu.



"ATƏT-in Minsk qrupunun həmsədr ölkələri olan ABŞ, Fransa və Rusiya BMT Təhlükəsizlik Şurasının daimi üzvləri olaraq qətnamələrin icrasını təmin etməyiblər. Təhlükəsizlik Şurasının 5 daimi üzvündən 3-ü kimi onlar bu qətnamələrin qəbuluna səs veriblər və ona görə də bu qətnamələrin icrasını təmin etməli idilər. Cəmiyyətimiz hələ də ATƏT-in Minsk qrupunun həmsədrlərindən təcavüzkarla təcavüzə məruz qalan tərəfin ədalətli şəkildə fərqləndirəcəklərini gözləyir. Təəssüf ki, biz bunu görmürük". Bu fikirləri isə Milli Məclisin deputatı, ATƏT PA-nın vitse-prezidenti Azay Quliyev deyib. O bildirib ki, Ermənistanın təcavüzkarlıq və işğalçılıq siyasəti ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən birmənalı şəkildə və qətiyyətlə pislənməlidir: "Bunu etməklə Minsk qrupu Ermənistana açıq mesaj göndərər ki, beynəlxalq ictimaiyyətin bu ölkənin işğalçılıq və təcavüzkar siyasəti ilə barışmaq fikri yoxdur. Azərbaycan cəmiyyətində ATƏT-in Minsk qrupuna qarşı bir qəzəb və məyusluq hissi var. Son eskalasiya beynəlxalq vasitəçilərə status-kvonun saxlanmasının nəinki yolverilməz, həm də çox təhlükəli olduğunu xatırlatmalıdır. Vasitəçilər münaqişənin beynəlxalq hüququn prinsip və normaları əsasında tezliklə həllinə nail olmalıdırlar. Hamı bilməlidir ki, Azərbaycanın ərazi bütövlüyünə, suverenliyinə və beynəlxalq səviyyədə tanınan sərhədlərinin toxunulmazlığına alternativ yoxdur. Bu məsələ müzakirə oluna bilməz".



Düşmənlə mübarizə aparmaq üçün əvvəlcə onun dilini bilmək lazımdır. Tovuz hadisələri də təsdiqlədi ki, erməni dilini bilən mütəxəssislərə ciddi ehtiyacımız var. Çünki informasiya müharibəsində, sosial medianın "ikinci silah" olduğu dönəmdə düşmən dilini mənimsəmək onu öz əli ilə vurmaqdır. Filologiya elmləri doktoru, Bakı Dövlət Universitetinin professoru Qulu Məhərrəmli hesab edir ki, erməni dilini öyrənmək ciddi məsələdir: "Ermənişünaslıq mərkəzlərinin olması, onların dilinin öyrənilməi vacibdir. Müharibə apardığın ölkənin dilini bilməlisən. Ən başlıcası Ermənistanın daxilindəki prosesləri erməni mənbələrindən oxumaq imkanı yaranır. Sonra cərəyan edən hadisələrin təhlili və erməni dilində yayılması üçün əhəmiyyətlidir". Q.Məhərrəmlinin fikrincə, Tovuz istiqamətində baş verən son proseslər cəmiyyəti silkələyib: "Bir çox sahədə, o cümlədən informasiya sahəsində ciddi islahatlar aparmalıyıq. Bir millət torpaqlarını azad etmək üçün düşmənini yaxşı tanımalıdır. Atatürkün gözəl bir sözü var - müharibə aparan ölkələrdə təkcə ordular döyüşmür, dil, mədəniyyət, iqtisadiyyat da döyüşür".

Hazırladı: **Ramil Hikmət**

# ŞƏHİDLİK VƏ QAZİLİK

## Torpaq - əgər uğrunda ölən varsa, Vətəndir...

Dinimiz vətəni, dövləti, ailəni, özünün şərəf və ləyaqətini qorumağı insanların başlıca vəzifəsi hesab edir. Buradan da insanın vətən, ailə, cəmiyyət qarşısında daha bir mühüm vəzifəsi ortaya çıxır. Bu vəzifələri ləyaqətlə yerinə yetirənlər Uca Yaradanın çox sevdiyi insanlardır, Allah-Təala tərəfindən mükafatlandırılırlar. Bu mükafat ya şəhid, ya da qazi olmaqdır.

Şəhidlik – Allah və dini yolunda, vətən və namus uğrunda Allahın razılığını qazanmaq üçün qarşısına məqsəd qoyub, canından keçməkdir. Eyni zamanda, öz canını, malını və ailə üzvlərini qoruyarkən həlak olanlar da şəhid adlanırlar.

Qazi – Allahın razılığını qazanmağı qarşısına məqsəd qoyub, dinini, vətənini, ailəsini təcavüzdən qorumaq üçün savaşaraq döyüş meydanından sağ qayıdanlara deyilir.

Qurani-Kərimin “əl-Bəqərə” surəsinin 154-cü ayəsində buyurulur: “Allah yolunda öldürülənlərə (şəhid olanlara) “ölü” deməyin. Əksinə, onlar (Allah dərgahında) diridirlər, lakin siz bunu dərk etmirsiniz”.



Şəhadət şərbətini içmək elə böyük zirvədir ki, Məhəmməd peyğəmbər (s) belə, şəhid olmağı arzulamışdır. O, hədislərinin birində buyurur: “Kaş ki, Allah yolunda öldürüləydim və sonra dirilib yenə öldürüləydim, daha sonra yenə dirilib yenə öldürüləydim...” Deməli, Həzrət Məhəmməd (s) peyğəmbər olmasına baxmayaraq, şəhidliyə, onun məqamına böyük önəm vermişdir.

Eyni zamanda, qazilər də, bir çox alimlərə görə, şəhidlərlə eyni mərtəbəni bölüşdürür. Əsgər millətinin hüquqlarını tanıtmaq, namusunu, şərəfini müdafiə etmək, yurdunu düşmən tapdağına keçməsinin qarşısını almaq üçün meydana atılan, haqq yolunda, Allah yolunda canını fəda etməkdən çəkinməyən qəhrəmandır. Belə bir vəzifənin nə qədər müqəddəs, nə dərəcədə yüksək olması şübhəsizdir. Buna görə də dinimiz, kitabımız, millətimiz bu böyük amal uğrunda ölənlərə şəhid, vəzifəsinin öhdəsindən qəhrəmanlıqla gəlib sağ qalanlara isə qazi adı vermiş və onların axirət məqamlarını peyğəmbərlərdən sonrakı məqamda bərqərar etmişdir.

Şəhidlik və qazilik tarix boyunca bu ali ruha sahib olan xalqımızın mənliyində yaşayan iki ali keyfiyyət olmuşdur. Xalqımız vətən və müqəddəs dəyərlər naminə həmişə döyüşmüş, bu yolda ölməyi yaşamaqdan üstün tutmuşdur. “Ölərsəm - şəhid, qalarsam - qazi” inamı xalqımızın şanlı zəfərlərinin sirri olmuşdur. Müqəddəs əxlaqi dəyərlər uğrunda mübarizənin sonunda dinimizin vəd etdiyi yüksək əbədi mükafat durur.

Şəhidlik və qazilik yalnız müsəlmanlara, o cümlədən xalqımıza məxsus keyfiyyət olub, bizi tarix boyu dinimiz və vətənimiz uğrunda qəhrəmanlıqlara sövq etmişdir. Qəhrəman xalqımız ən qədimdən kişisi, qadını ilə özünün həyat meyarını bu ali dəyərlərə görə ölçmüşdür. Şəhid olmaq nə qədər şərəflidirsə, vətən torpağını düşmənlərdən təmizləmək, haqq uğrunda, Allah-Təalanın razılığı üçün vuruşub sağ qalmaq da bir o qədər şərəflidir. Bu gün Uca Yaradan bizə bunu buyurur, Vətən bunu əmr edir.

Vətən bir torpaq parçasıdır, amma hər torpaq parçası vətən deyildir. “Torpaq - əgər uğrunda ölən varsa, vətəndir” - deyən türk dünyasının məşhur şairi Mithat Cemal Kuntay bu həqiqəti necə də gözəl ifadə etmişdir.

Bu gün sahib olduğumuz vətən uğrunda qəhrəmancasına həlak olan şəhidlərimizi minnətdarlıq və rəhmətlə anır, qazilərimizə isə hörmət və ehtiramımızı bildiririk.

***“Cəmiyyət və Din”***

# BİRGƏYAŞAYIŞ TƏCRÜBƏSİ

“Üns” sözündən törəmiş insan sözü “ünsiyyət tapan” deməkdir. Çünki ictimai (mədəni) varlıq olan insan daima digər insanlarla təmasda olmağa can atır. Onun istər fiziki, istərsə də əqli məhdudluğu bütün arzu və istəklərinə fərdi şəkildə yiyələnməyə imkan vermir. Məhz bu səbəbdən kamilliyə çatmaq, mədəniyyətə yiyələnmək üçün insan cəmiyyət halında formalaşıb birgəyaşayış təcrübəsi əldə etməklə öz məqsədinə, təkamülə çatmış olur.

İbtidai icma quruluşundan bəri insanlar daim qrup halında yaşayıb birgə fəaliyyət göstərmişlər. Bu birgəyaşayış təcrübəsi getdikcə onların ümumbəşəri qanunlara yiyələnib, həmin qanunları həyatlarının hər bir sahəsinə tətbiq etməklə mədəniyyətə sahib olmalarına imkan vermişdir. Bununla tək dünya deyil, həm də axirət həyatlarının təminatçısı olan Ulu Tanrı qarşısında öz rahatlıqlarını təmin etmişlər. Birgəyaşayış təcrübəsi göstərmişdir ki, insan həyatının əsasını irqçilik, radikal dinçilik və zorakılıq yox, əksinə, insanların özlərinə və gələcək nəsillərə xoş həyat bəxş edən bərabərlik, mədəniyyət və elmi nailiyyətlər təşkil edir. Mədəniyyətə və elmə yiyələnmiş hər bir insan, hər bir xalq isə sürətlə tərəqqiyə doğru irəliləyir.

Dünya dövlətləri arasında öz imzası ilə tanınan Azərbaycan İslam mədəniyyətinin bir parçasına çevrilmişdir. Öz milli-mənəvi və dini dəyərlərinə daim sadiqlik nümayiş etdirən ölkəmizin mədəniyyətində birgəyaşayış təcrübəsinin izlərini açıq-aydın görmək mümkündür. Əhalisinin təxminən 96%-ni İslam dininə inananların təşkil etməsinə baxmayaraq, ölkəmizdə başqa din nümayəndələrinə daim tolerant münasibət göstərilmişdir. Ümummilli Lider Heydər Əliyev Azərbaycan xalqının bu xarakterik keyfiyyətini çox gözəl ifadə etmişdir: “Hesab edirəm ki, Azərbaycan xalqı özlüyündə, təbiətinə görə, öz xarakterinə görə yüksək tolerantlıq hissinə malikdir. Azərbaycan əhalisinin çox hissəsinin etiqad etdiyi müsəlman dinində, onun kökündə də tolerantlıq var”.

Bu gün milli mənsubiyyətindən, din və məzhəb seçimindən asılı olmayaraq ölkəmizdə insanlara ibadətlərini sərbəst şəkildə yerinə yetirmək üçün hər cür şərait yaradılmışdır. Xüsusilə, İslam mədəniyyətinin dövlət səviyyəsində yüksək formada dəstəklənməsi, dini adət-ənənələrin yaşadılması başqa müsəlman dövlətləri tərəfindən maraq və rəğbətlə qarşılanmışdır. Azərbaycan 1991-ci ildən İslam Əməkdaşlıq Təşkilatına (İƏT) və İSESKO-ya tamhüquqlu üzvü seçilmişdir. Birinci vitse-prezident Mehriban xanım Əliyeva isə 2006-cı ildən İSESKO-nun xoşməramlı səfiridir.

Elm, texnologiyalar, təhsil və mədəniyyət sahəsində qarşılıqlı əlaqələrin genişləndirilməsi birgəyaşayış mədəniyyətinə böyük töhfələr verir. Azərbaycanın birgəyaşayış təcrübəsi qonşu müsəlman və digər dövlətlər ilə münasibətdə də özünü göstərməkdədir. Türkdilli Dövlətlərin Əməkdaşlıq Şurasının Zirvə görüşlərinin 2009-cu ildə Naxçıvanda və 2019-cu ildə Bakıda keçirilməsi regionda və dünyada sülhün bərqərar edilməsində ölkəmizin oynadığı müsbət roldan xəbər verir.

Dini etiqad azadlığının təmin olunması, bu sahədə vahid dövlət siyasətinin həyata keçirilməsi, dövlət-din münasibətlərinin tənzimlənməsi və inkişafının təmin edilməsi, dini etiqad sahəsində maarifləndirmə işinin aparılması, dini qurumların dövlət qeydiyyatını həyata keçirilməsi, dini təhsil ilə bağlı məsələlərin tənzimlənməsi məsələlərində ölkəmiz çoxillik təcrübəyə malikdir.

14-15 noyabr 2019-cu ildə “Dünya dini liderlərinin II Bakı sammiti” Azərbaycanın dünya miqyasında mədəni-mənəvi dəyərlər mərkəzi statusunu bir daha təsdiqləmişdir. Azərbaycan Respublikası Prezidenti İlham Əliyevin xüsusi diqqət və qayğı göstərdiyi sammitdə dünyanın 500-ə yaxın tanınmış din, dövlət və ictimai xadimi iştirak etmişdir. Qlobal miqyaslı bu tədbir Azərbaycanın dinlərarası dialoq və əməkdaşlıq platformasında öncül rolunun göstəricisi olaraq, dinlərarası əməkdaşlıq tarixinin səhifələrinə həkk olunmuşdur.

Ölkəmizin birgəyaşayış təcrübəsinə dair elmi, siyasi, ictimai və fərdi tədqiqatların artmasına töhfə vermək isə hər birimizin vətəndaşlıq borcudur.

**Bəxtiyar ƏZƏMİ,**
*Şirvan şəhəri Bayramlı qəsəbə məscidinin imamı və icma sədri*

# İSLAM MƏDƏNİYYƏTİ PAYTAXTI - 2016

## FRİTAUN

Syerra-Leone Atlantik okeanı sahilində yerləşən, Liberiya və Qvineya ilə həmsərhəd olan Qərbi Afrika ölkəsidir. Ərazisi əsasən sahil xətti boyunca bataqlıqlardan, meşəli təpələrdən, dəniz səviyyəsindən yüksək olan yaylalardan və şərqdəki dağlardan ibarətdir. BMT-nin son məlumatlarına əsasən, əhalisi 7.9 milyon nəfərdən ibarət olan ölkə dünya sıralamasında əhalisinə görə 103-cü, ərazisinə görə 120-ci yerdə qərarlaşıb.

Hazırda Syerra-Leone əhalisinin illik artım sürəti 2%-dən çoxdur. Bu ölkədə əhali sıxlığı hər kvadratkilometrə 105 nəfər təşkil edir. Orta hesabla hər qadın 4 uşaq dünyaya gətirir ki, bu da əhalinin artmasını əhəmiyyətli şəkildə sürətləndirir.

Ölkədə 16 fərqli etnik qrup var və hər biri fərqli dilə sahib olsa da, rəsmi dil krio və ingilis dilidir. Ən böyük etnik qrup temne (35%), ardınca mendedir (31%). Üçüncü ən böyük etnik qrup, bölgədə yerli olan və Şimali Syerra-Leonedə yaşayan limbadır (8%). Dördüncü qrup XVII və XVIII əsrlərdə Qvineyadan gələn Fulani miqrant məskənlərinin nəsilləri olan fuladır (7%). Digər etnik qruplar kimi Qvineya tacirlərindən olan mandinqo (2%), kono (5%) və krionu (2%) göstərmək olar.

Syerra-Leone əhalisinin 42%-ni 15 yaşına çatmayan gənclər təşkil edir. O, dünyanın ən kasıb ölkələri siyahısına daxildir. Qərbi Afrikada gənclərin işsizlik nisbətinə görə ən yüksək yerə sahibdir. Ölkədə içməli su problemi mövcuddur. Suyun böyük hissəsi çirklənmiş mənbələrdən toplanılır. Syerra-Leonedə HİV/AİDS, malyariya və sarı qızdırma kimi xəstəliklər geniş yayılmışdır. Əhalisinin 81% -i yoxsulluq içində yaşayır.

Syerra-Leone dövlətinin rəsmi dini olmasa da, əhalinin əksəriyyətini müsəlman (78 faiz) və xristianlar (21 faiz) təşkil edir. Müsəlmanların, demək olar ki, hamısı sünni, xristianlar isə protestant məzhəbinə mənsubdur. Syerra-Leone xalqı dünyanın ən tolerant xalqlarından biri hesab edilir. Burada xristianlar və müsəlmanlar dinc şəkildə, birgə yaşayırlar. Ölkədə baş verən zorakılıq və münaqişələrin heç biri dini zəmində olmur.



Syerra-Leone 1961-ci ildə müstəqilliyini elan etmişdir. Həmin vaxta qədər o, İngiltərənin müstəmləkəsi idi. Ölkə 1971-ci ildə respublika elan edilmiş və konstitusiya qəbul olunmuşdur. Rəsmi olaraq Syerra-Leone Respublikasında hakimiyyətin üç qolu vardır: icra, qanunverici və məhkəmə. Ölkənin özü 149 baş idarə, kiçik yerli idarəetmə vahidlərinə bölünmüşdür.

Syerra-Leonenin paytaxtı və ən böyük şəhəri Fritaundur. Dəniz səviyyəsindən 26 metr hündürlükdə yerləşən şəhərin əsası 1787-ci ildə qoyulmuşdur. Fritaun Atlantik okeanı sahilində yerləşən ən əhəmiyyətli liman şəhəridir. Hazırda şəhərdə 1,2 milyon insan yaşayır. Əhalisinin sayına görə Fritaun dünya şəhərləri arasında 432-ci yerdədir. Ölkənin iqtisadi, maliyyə, mədəni, təhsil və siyasi mərkəzi olan şəhərdə bir sıra dövlət əhəmiyyətli binalar, muzeylər, məscidlər və kilsələr, universitetlər mövcuddur. Syerra-Leonenin ən böyük məscidi də Fritaunda yerləşir. Bu, Fritaun Cümə Məscididir. İbadət ocağı ölkə elitasının qatıldığı bir sıra mədəni tədbirlərə ev sahibliyi etmişdir. Əhəmiyyətli əlamətdar yer olan bu məscid heyrətamiz memarlığı və mənəvi əhəmiyyəti sayəsində ən çox turist cəlb edən yerdir. Digər böyük məscid Qəzzafi Mərkəzi Məscididir. Onu Liviyanın keçmiş diktatoru Muammar Qəzzafi inşa etdirmişdir.

Paytaxtda məscidlərlə yanaşı, bir çox kilsə də fəaliyyət göstərir. Məsələn, Fritaun Roma Katolik Kilsəsi, Syerra-Leone Birləşmiş Metodist Kilsəsi, Syerra-Leone Baptist icmasının kilsəsi, 1828-ci ildə açılmış Müqəddəs Georgi Kafedralı.

Hazırladı: **Tural Vəlizadə**

# MƏKKƏ İLK ZƏVVAR QRUPUNU QƏBUL EDİB

Səudiyyə Ərəbistanının qərarı ilə məhdud sayda – cəmi min zəvvarın iştirak edəcəyi Həcc ziyarətinə gələn ilk qrup qəbul edilib. Zəvvarlar Krallıqda yaşayan yerli və əcnəbi dindarlardan ibarətdir.

Rəsmi SPA agentliyinin xəbərində Krallığın Həcc və Ümrə məsələləri üzrə naziri Məhəmməd Saleh Bəntenin məhdud tərkibdə zəvvarların təhlükəsizliyi ilə bağlı açıqlamaları yer alıb. O bildirib ki, Kral Salmanın göstərişinə əsasən, bu il Həcc ziyarəti ev karantini ilə başlayıb. Zəvvarlar Məkkəyə gəlməzdən əvvəl öz evlərində karantin müddəti keçirib və bundan sonra yenidən COVID-19-a qarşı müayinə olunublar. Nazir əlavə edib ki, Məkkə və Mədinədəki müqəddəs məscidlərdə, habelə zəvvar düşərgələrində də yoluxma hallarının olmaması üçün ən ciddi tədbirlər görülüb.

Nazir vurğulayıb ki, Krallıq son on il ərzində bütün dünyadan gələn 150 milyon zəvvara ən yüksək səviyyədə xidmət göstərib. O, növbəti ildə pandemiyanın aradan qalxacağına və normal Həcc ziyarəti keçiriləcəyinə ümidvar olduğunu bildirib.



# BRİTANİYA POLİSİ "İSLAMÇI" VƏ "CİHADÇI" TERMİNLƏRİNDƏN İMTİNA ETMƏK TƏKLİFİNİ İRƏLİ SÜRÜB

Böyük Britaniya polisi rəsmi ifadələrdə tez-tez istifadə olunan "cihadçı" və "islamçı" terminlərinin "dini etiqadına görə terrorçu" və "Usama bin Laden ideologiyasının davamçısı" kimi neytral ifadələrlə əvəzlənməsi təşəbbüsü ilə çıxış edib. Bu barədə "The Times" xəbər verib.

Təxminən üç min üzvü olan Milli Müsəlman Polislər Assosiasiyası hüquq-mühafizə orqanlarının əməkdaşlarının rəsmi açıqlamalarında "cihadçı" və "islamçı" ifadələrinin istifadəsinə qarşı çıxıb. "Mədəni dəyişikliklər bizdən tələb edir ki, birbaşa İslam və cihadla əlaqəli olan terminlərin istifadəsindən uzaqlaşaq. Bu, müsəlman icması ilə əlaqələrin yaxşılaşdırılmasına və ümumilikdə ictimai etimadın güclənməsinə imkan vermir", - deyə assosiasiyanın bəyanatında bildirilib.

Bunun əvəzinə onlar ərəb dilində dinlə əlaqəli olmayan "irhabi" sözünün işlədilməsini təklif ediblər. Əsasən Yaxın Şərqdə geniş yayılan bu ifadə ekstremistləri nəzərdə tutur. Bundan başqa, "dini etiqadına görə terrorçu" və "Usama bin Laden ideologiyasının davamçısı" kimi neytral ifadələr də təkliflər arasındadır.



# MƏŞHUR SƏYYAH XRİSTOFOR KOLUMBUN HEYKƏLİ SÖKÜLÜB

ABŞ-ın Çikaqo şəhərinin (İllinoys ştatı) hakimiyyət orqanları məşhur dəniz səyyahı Xristofor Kolumbun parkda yerləşən abidəsinin sökülməsi barədə qərar qəbul edib.

"Chicago Tribune" qəzeti xəbər verir ki, iyulun 24-nə keçən gecə Xristofor Kolumbun abidəsi ağır texnikanın köməyi ilə postamentdən götürülüb.

Bir müddət öncə şəhər meri Lori Laytfut irqçilik əleyhinə yeni etiraz dalğasından yayınmaq məqsədilə abidənin sökülməsi barədə göstəriş verib. Səyyahın abidəsinin əslən Karib hövzəsindən olan vətəndaşların hisslərini alçaltması iddiaları Xristofor Kolumbun ABŞ tarixindəki rolunu mübahisə mövzusuna çevirib.

İyulun 17-də Çikaqo şəhərində etiraz aksiyaları zamanı qəzəbli kütlə Xristofor Kolumbun abidəsinə yaxınlaşaraq asayişi qoruyan polisləri daşa basıb. Nəticədə 18 polis əməkdaşı xəsarət alıb və onlardan bəziləri xəstəxanaya yerləşdirilib. Eyni zamanda, iğtişaşlarda iştirak edən 12 nəfər saxlanılıb.

# AYASOFYA MƏSCİDİ 86 İL SONRA YENİDƏN İBADƏTƏ AÇILDI



İyulun 24-də İstanbulda Ayasofyada 86 ildən sonra ilk cümə namazı qılınıb və bununla da o, məscid kimi ibadətə açılıb.

Açılış mərasimində Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan, dövlət rəsmiləri, millət vəkilləri, siyasi partiyaların nümayəndələri, ictimai-siyasi xadimlər, yerli və xarici turistlər iştirak edib.

Məsciddə ilk dua Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan tərəfindən edilib.

Bununla əlaqədar bir neçə gün əvvəldən hazırlıqlar aparılıb. Ölkənin müxtəlif bölgələrində yaşayan vətəndaşlar açılış mərasimində iştirak etmək üçün İstanbula axın ediblər. Şəhərin Ayasofyaya yaxın 21 məscidi buraya gələn ziyarətçilərə xidmət göstərmək üçün gecə boyu açıq olub.

Məscidin xalçaları ölkənin Manisa vilayətində yerləşən "Özkul" xalı fabrikində hazırlanıb. Toxuma işlərində üç növbə olmaqla 75 işçi iştirak edib.

Açılışda Türkiyənin Qızıl Aypara Cəmiyyəti tərəfindən yeni növ koronavirusdan qorunmaq üçün ziyarətçilərə maska, dezinfeksiyaedici vasitələr, həmçinin su və qida məhsulları paylanılıb.

Qeyd edək ki, Ayasofya 27 dekabr 537-ci ildə təqdis olunub. Təxminən min il ərzində dünyanın ən böyük məbədi hesab edilib. Sonradan Osmanlı İmperiyasının əsas məscidinə çevrilib. Mustafa Kamal Atatürkün qərarı ilə 1935-ci ildən bəri muzey statusuna sahib idi, 1985-ci ildə isə UNESCO-nun Dünya İrs Siyahısına daxil edilib.

# PAPA FRANSİSK İNKİŞAF ETMƏKDƏ OLAN ÖLKƏLƏRƏ SÜNİ TƏNƏFFÜS CİHAZLARI GÖNDƏRİB

"Catholicnewsagency"-nin məlumatına görə, Papa Fransisk 35 ədəd süni tənəffüs aparatını inkişaf etməkdə olan ölkələrə hədiyyə edib. Haiti, Venesuela və Braziliyanın (bu ölkələrin hər birində artıq on minlərlə insan ölüb) hər birinə 4 ədəd cihaz göndərilib. Digər tənəffüs aparatları Vatikanın yerli apostol nunsiaturaları və ya səfirlikləri vasitəsilə Meksika, Kolumbiya, Honduras, Ekvador, Kamerun, Zimbabve, Banqladeş, Ukrayna və Dominikan Respublikasına göndərilmişdir. Papa bu hədiyyə ilə "koronavirus pandemiyasından zərər görən, xüsusilə də problemli səhiyyə sisteminə sahib ölkələrə öz yaxınlığını ifadə edir", - deyə Papa Xeyriyyə İdarəsindən bildirilib.

Vatikanın Ekvadordakı apostol nunsisi, arxiyepiskop Andres Karraskosa Koso "Vatican News"-a verdiyi açıqlamada iki süni tənəffüs cihazının Kitoya çatdırılmasının çox təsirli fakt olduğunu söyləyib. "Bu iki cihaz böyük sevinc hissi ilə qarşılandı və Papanın ata qayğısı kimi qəbul edildi, bu, çox çətin vəziyyətlə qarşılaşan bir ölkənin ehtiyaclarına diqqətinin əlaməti idi", - deyə arxiyepiskop söyləyib.



# VATİKAN KATEXİZASİYAYA DAİR YENİ TƏLİMATLAR NƏŞR EDİB



Papa Fransisk "Katexizasiyaya dair ümumi təlimat"ın yeni nəşrini təsdiqləyib. Təlimat yeni yevangelizasiyanı (xalqları və insanları Xristianlığa dəvət etmək məqsədi daşıyan fəaliyyət) dəstəkləmək məqsədilə Papa Şurası tərəfindən hazırlanıb.

Əhatəli sənəd 1997-ci ildə Müqəddəs Taxt-Tac tərəfindən nəşr olunmuş əvvəlki təlimatın yenilənmiş formasıdır. Onun əsas cəhətləri biri mədəniyyətin müasir qloballaşma və rəqəmsal dünya kontekstində yevangelizm və katexizasiya arasındakı sıx əlaqəyə toxunmasıdır.

300-dən çox səhifəsi, 3 hissədən və 12 fəsildən ibarət olan kitabda vəftiz edilmiş şəxslərə üzərinə məsuliyyət yüklənmiş bir missioner-şagird olduqları aşılanır. Qeyd olunur ki, onların müjdəçiliyi etibarlı və cəlbedici dəlilləri, səmərəli xeyriyyəçilik və sərbəst dialoqu əhatə etməlidir.

Sənəd rəqəmsal mədəniyyətin işıqlı və qaranlıq tərəflərini araşdırır: bu gün o, təbii bir hal kimi qəbul edilir: "Rəqəmsal dünyada yevangelik dəyərlərin şahidləri üçün yer olmalıdır. Katexizatorların vəzifəsi rəqəmsal texnologiyaların düzgün istifadəsini öyrətmək, xüsusən də gəncləri yönəltməkdir, çünki virtual dünya onların şüurunun formalaşmasında ciddi nəticələr doğura bilər. Rəqəmsal dünyanın tənhalıq, manipulyasiya, zorakılıq, kiberhücum, qərəz və nifrətə səbəb ola biləcəyini unutmamaq lazımdır. O, istifadəçilərini "sosial şəbəkələrdə sürü" halına gətirmək, dəyərlər və perspektivlər iyerarxiyasından məhrum olan "bu anlıq mədəniyyət" tərəfdarıdır. Buna görə katexizatorlar gənclərə aldıqları məlumatlara tənqidi yanaşmağı aşılamalıdırlar".

Təlimatda o da vurğulanır ki, katexizasiya "dərin ekoloji çevrilişə" təşviq etməli, məxluqata qayğı göstərməli və mənfəətpərəst istehlakçılıqdan uzaq, səxavətli həyata ruhlandırmalıdır.

# KENTERBERİ ARXİYEPİSKOPU MƏSİHİN AĞDƏRİLİ KİMİ TƏSVİR EDİLMƏSİ ƏNƏNƏSİNƏ YENİDƏN BAXILMASINI TƏKLİF EDİB

Kenterberi arxiyepiskopu Castin Uilbi Xristianlığın qurucusunun "düzgün irqi" imici ətrafında gedən mübahisələrə qoşulub. "BBC" telekanalındakı çıxışı zamanı Anqlikan Kilsəsinin rəhbəri Məsihin ağdərili insan kimi təsvir edilməsi ənənəsinə yenidən baxılmasının vacibliyinə toxunub.

Mübahisə Amerikanın "Black Lives Matter" hərəkatının fəallarından keçmiş pastor Şon Kinqin şərhindən sonra ortaya çıxmışdı. Belə ki, Kinq İsanın geniş yayılmış təsvirinin "ağdərililərin üstünlüyü"nün təzahürü olduğunu, buna görə də məbədlərdəki heykəl, ikona və vitraj pəncərələrin sökülməli olduğunu bildirmişdi. O, "Twitter"-dəki onlayn müzakirələr zamanı ABŞ və Avropada irqçiliyə qarşı etiraz dalğasından sonra bu cür təsvirlərin yolverilməz olduğuna dair fikirlər səsləndirmişdi. Qeyd etmişdi ki, Məsih və ailə üzvləri Yaxın Şərq insanının antropoloji xüsusiyyətlərinə sahib olmalıdır.

Kinq tərəfdarları Məsihin müxtəlif xalqların ikonoqrafiyasında necə təsvir olunmasına dair misal gətirirlər. Məsələn, Müqəddəs Məryəmin körpə İsa ilə müxtəlif irqlərə və xalqlara məxsus insanların obrazında verilmiş təsviri Nazaretdəki "Blaqoveşeniye" məbədində saxlanılır. Ancaq indiyə qədər heç kim "ağ" Məsihi bu cərgədən silməyə çalışmayıb.



# BİLİRSİNİZMİ?

**1 avqust** – Təşriq günləridir. Qurban bayramından sonrakı üç gün, yəni zilhiccə ayının 11-ci, 12-ci və 13-cü günləri təşriq günləri adlanır. Ərəb dilində ət parçalarını günün altında qurutmağa "təşriq" deyirlər. Zəvvarlar Qurban bayramı günündə kəsdikləri heyvanların ətini sonrakı günlərdə Minada günəşin altında qurutduqları üçün həmin günlərə bu ad verilmişdir. Təşriq günlərində Minada qalan zəvvarlar şeytanı daşlamağa davam edirlər.

**1 avqust** – Azərbaycan əlifbası və Azərbaycan dili günüdür. Bu əlamətdar gün Ümummilli Lider Heydər Əliyevin 2001-ci il 9 avqust tarixli Fərmanına əsasən təsis edilib. Fərman latın qrafikalı Azərbaycan əlifbasına keçidin ölkəmizdə 2001-ci ilin avqustunda bütövlükdə təmin edildiyini və yeni əlifbadan istifadənin müstəqil Azərbaycanın ictimai-siyasi həyatında, yazı mədəniyyətimizin tarixində mühüm hadisə olduğunu nəzərə alaraq imzalanıb.

**6 avqust** – Ümumdünya Nüvə Silahlarının Qadağan edilməsi və ya "Xirosima günü"dür. 1945-ci ilin bu günü İkinci Dünya müharibəsi çərçivəsində ABŞ "little boy" (balaca oğlan) adı verilən 15 min ton TNT-lik atom bombasını günahsız Xirosima sakinlərinin üzərinə atmışdır. "Fatman" (kök adam) adlı ikinci bomba isə avqustun 9-da Naqasaki şəhərinə atılmışdır. Hadisədən 6 gün sonra Yaponiya hökuməti qeyri-şərtsiz təslim olmuşdur. Müharibənin bitməsindən 10 il sonra 6 avqust 1955-ci ildə Xirosima faciəsinin xatirəsinə bu şəhər atom və hidrogen silahlarının qadağan olunmasına dair birinci beynəlxalq konfransa ev sahibliyi etmişdir.

**6 avqust** – Beynəlxalq "Dünya həkimləri sülh naminə" günüdür. Bu barədə təklif "Dünya həkimləri nüvə təhlükəsinin qarşısının alınması uğrunda" təşkilatı tərəfindən irəli sürülmüşdür. Həmin tarix 1945-ci il avqustun 6-da Yaponiyanın Xirosima şəhərinin bombalanmasının ildönümü günündə qeyd edilir. Rəmzi məna daşıyan bu tarixi gün bəşəriyyətin üzləşdiyi dəhşətli faciəni, sülh uğrunda mübarizədə və müharibənin qarşısının alınmasında həkimlərin rolunu bir daha xatırladır.

**6 avqust** – Qərb xristianları "Preobrajeniye" - İsa Məsihin şəklini dəyişməsi gününü qeyd edir. Bu sirli şəkil dəyişmə hadisəsi Bibliyada dua əsnasında İsa Məsihin ilahi əzəmət və izzətinin üç ən yaxın şagirdi qarşısında təzahür etməsi kimi təsvir olunur. Qeyd olunur ki, yer üzündəki həyatının sonunda İsa Məsih şagirdlərinə bildirdi ki, onu insanlar üçün iztirab çəkmək, çarmıxda ölmək və yenidən dirilmək gözləyir. Bundan sonra o, özü ilə birlikdə üç həvarisini - Pyotr, Yaqub və Yəhyanı götürüb hündür bir dağa (Tabor; Cəbəl-Tur) çıxdı. Onların qarşısında görünüşü dəyişdi, libası gözqamaşdırıcı ağ rəng aldı. Həmin an İlyas və Musa peyğəmbərlər onlara göründü. Onlar İsa ilə söhbət edirdilər. Bu zaman bir bulud onların üzərinə kölgə saldı. Buluddan bir səs gəldi: "Bu Mənim sevimli Oğlumdur, Ona qulaq asın!" Birdən ətrafa baxanda artıq yanlarında İsadan başqa heç kimi görmədilər. Xristianlıqda "Preobrajeniye" günü məhsulun təqdis edilməsi xüsusi simvolik məna kəsb edir: Məsihin şəklini dəyişməsi onun dirilməsindən sonra bəşəriyyətin və dünyanın əldə etdiyi və bütün insanların dirilməsi ilə həyata keçəcək yeni, dəyişmiş və lütf dolu vəziyyəti göstərir. "Preobrajeniye" günü Şərq Kilsəsində IV əsrdən bəri qeyd edilir. Katolik təqviminə isə 1457-ci ildə Papa III Kalikst tərəfindən salınmışdır. Rus Pravoslav Kilsəsi bayramı avqustun 19-da qeyd edəcək.

**9 avqust** – Ümumdünya Kitabsevərlər Günüdür. Amerikada yaranan bayram, demək olar ki, dərhal dünyanın bir çox yerlərində pərəstişkar qazanaraq beynəlxalq kitabsevərlər gününə çevrilmişdir. Bu bayramı yazıçılar, şairlər, ədəbiyyatçılar, naşirlər, mətbəələr, kitab mağazaları və əlbəttə, kitabın məhz onlar üçün yaradıldığı insanlar – oxucular qeyd edirlər. Kitaba tələbatı məhz oxucu yaradır və davam etdirir. Buna görə də bu gün ilk növbədə onlara həsr olunub. Bayramın əsas məqsədi mütaliənin insanlar arasında populyarlaşmasını təmin etməkdir.

**9 avqust** – Beynəlxalq Yerli Xalqlar Günüdür. 1994-cü ildə BMT Baş Assambleyası tərəfindən təsis olunub. Əsas məqsəd dünyadakı yerli xalqların səslərini daha aydın eşitmək və onların problemlərinə diqqət çəkməkdir. Dünyanın 90 ölkəsində yerli xalqları təmsil edən 370 milyona yaxın insan yaşayır. Dünya əhalisinin ən azı 5 faizi, planetin ən yoxsul sakinlərinin 15 faizi onların payına düşür. Yerli xalqlar 5000 müxtəlif mədəniyyət və ümumi sayı təxminən 7000-ə çatan dünya dillərinin böyük əksəriyyətinin, həmçinin ata-babadan irsən keçən unikal mədəniyyət və ənənələrin daşıyıcılarıdır.

**10 avqust** – 70-ci ildə Roma imperatoru Titusun qoşunu Qüdsə daxil olaraq İkinci Qüds Məbədini uçurmuşlar. Məbəd 10 gün ərzində yandırılmış, İsrailin paytaxtı xarabalığa çevrilmişdir. Romalılar Məbəd dağını yerlə-yeksan etmişlər. 100 min şəhər sakini əsir götürülərək qul kimi satılmışdır. Qüdsün dağıdılması və Məbədin yandırılması nəticəsində yəhudilər bütün dünyaya səpələnmişlər. Talmud ənənəsinə görə, Məbəd dağıdıldıqda "Gözyaşı darvazaları"ndan başqa, səmanın bütün qapıları bağlanmışdır. İkinci Qüds Məbədindən geriyə qalan Qərb divarı "Ağlama divarı" adını almışdır, çünki məbədlərinin yasını tutan bütün yəhudilər burada göz yaşı tökürlər.

**11 avqust** – Şri Krişna Canmaştami (Krishna Janmashtami) - Krişnanın Zühur Günüdür. Dini inancından asılı olmayaraq, Hindistanda ümumxalq bayramı sayılan bu xüsusi gün geniş şəkildə qeyd olunur. Vedalar Şri Krişnanı bütün səbəblərin səbəbi, Tanrının Ali Şəxsiyyəti hesab edirlər. Krişna Aştamidə (Hindistanda Yeni ayın səkkizinci günü Aştami adlanır), azalan ay zamanı zühur edib. Onun doğum vaxtı yetişdikdə bütün planetlər ən əlverişli vəziyyəti almışdılar. Həmin an hər yerdə sülh və firavanlıq mühiti qurulmuşdu. Göydə əlverişli əlamətlər görünürdü, yerdə isə insanlar arasında xoşbəxtlik hökm sürməyə başlamışdı.

**12 avqust** – Beynəlxalq Gənclər Günüdür. 1998-ci il avqustun 8-dən 12-dək Lissabonda gənclərlə iş üzrə nazirlərin iştirakı ilə keçirilən beynəlxalq konfransda hər il avqustun 12-nin dünyada Gənclər Günü kimi qeyd olunması qərara alınmışdır. Bu əlamətdar gün gənclərə lazımi diqqət göstərmək, onların nailiyyətlərini təbliğ etmək, cəmiyyətin bütün sahələrində gənclərin iştirakına təkan vermək məqsədi ilə qeyd olunur.

**13 avqust** – Ümumdünya Solaxaylar Günüdür. Statistikaya görə, dünya əhalisinin 3-10%-i solaxaydır. 1992-ci ildə Britaniya Solaxaylar Klubu belə bir günün qeyd olunması təşəbbüsü ilə çıxış edib. Solaxaylar Gününün əsas məqsədi ictimaiyyətin diqqətini "sağəlli" dünyada solaxayların üzləşdiyi problemlərə çəkmək, dizayner, istehsalçı və satıcıların diqqətini müxtəlif əşyalardan istifadə edərkən solaxayların rahatlığını nəzərə almağa yönəltmək, əsrlər boyu müxtəlif cəmiyyətlərdə solaxaylar barədə yayılan xurafat və mövhumata son vermək, "soləlli" fenomeninin öyrənilməsi sahəsində elmi tədqiqat işlərini təşviq etməkdir.

**15 avqust** – Beynəlxalq Evsiz Heyvanlar Günüdür. Beynəlxalq Heyvan Hüquqları Cəmiyyəti (ISAR) tərəfindən onların populyasiyasının tənzimlənməsi problemini cəmiyyətə çatdırmaq üçün 1992-ci ildə təsis edilib. Hər il dünyanın 50-dən çox ölkəsində avqustun üçüncü şənbə günü qeyd edilir. Hər il dünyada milyonlarla it və pişik öldürülür. Lakin bu, məsələnin həlli deyil. ISAR bu gün vasitəsilə heyvanların arzuedilməz artımının qarşısının alınması üçün tədbirlər görülməsinin vacibliyini cəmiyyətin diqqətinə çatdırır.

**15 avqust** – Qərb xristianları Uspeniye bayramını qeyd edirlər. Müqəddəs Məryəm Ananın vəfatı günü və onun cismani olaraq səmaya qalxması münasibətilə qeyd olunan bu bayram Katolik Kilsəsində yüksək statusa (katolik bayramları iyerarxiyasında ən yüksək dərəcə) malikdir. Müqəddəs Məryəmin səmaya qalxması katolik doktrinasının doqmalarından biridir. İnsanlar əsrlər boyu buna inansalar da, doqma 1950-ci ildə rəsmi olaraq qeydə alınıb. Məryəm Ana ilə bağlı digər bayramlarda olduğu kimi, xristian möminlər messada iştirak edir, dualar oxuyurlar. Rus Pravoslav Kilsəsi bayramı avqustun 28-də qeyd edəcək.

**15 avqust** – Zərdüştilikdə Amertat (Padşahların Odu) bayramıdır. Amertat bitki səltənətinin himayədarıdır; ölməzliyi, sonsuzluğu təcəssüm etdirir. Həmin gün su "canlıdır", o, insanların qəlbini həyat eşqi ilə doldurur, yaradıcılığa təkan verir. Bayrama günəşin ilk şüaları ilə başlayırlar. Onun şüaları şəfa verir, cavanlaşdırır. Həmin gün insan yaradıcılıq enerjisini azad edir, öz əlləri ilə nəsə hazırlamağa çalışır.

**15 avqust** – Parisdə sonradan Yezuitlər ordeni kimi tanınan "İsa Cəmiyyəti" qurulub. XVI əsrdə Avropada sürətlə yayılan Reformasiya hərəkatı (protestantizm) bütün ölkələrin və xalqların Katolik Kilsəsindən uzaqlaşmasına səbəb olmuş, onun mövcudluğunu təhlükə altına almışdı. Yezuitlər ordeni də bu təhlükəyə reaksiya olaraq yaranmışdı. Cəmiyyət keçmiş hərbçi, ispaniyalı zadəgan, istedadlı vaiz olan İqnatius de Loyola tərəfindən təsis edilmişdi. Yezuitlərin fəaliyyətinin mühüm nəticələrindən biri çoxsaylı nümunəvi məktəblərin qurulması idi. Bu məktəblər öz dövrü üçün ən yüksək təhsil səviyyəsinə malik olan və müvəffəqiyyətlə katolikliyə xidmət edən tələbələri cəlb edirdi.

**19 avqust** – Ümumdünya Humanitar Yardım Günüdür. 2008-ci il dekabrın 11-də BMT Baş Assambleyası tərəfindən təsis edilib. Bu gün öz həyatlarını təhlükə altına qoyaraq başqalarının həyatını xilas etmək və yaxşılaşdırmaq üçün çalışan bütün humanitar yardım işçilərinə həsr olunub.

**20 avqust** – Hicri təqvimi ilə yeni ilin ilk günüdür. Ərəblər hələ eramızdan 1000 il əvvəl qəməri təqvimindən istifadə ediblər. Onlar sonradan, yəni miladi 622-ci ildə Peyğəmbərin Məkkədən Mədinəyə hicrətini yeni tarixin hesablanma anı, müsəlman erası və hicri-qəməri təqviminin başlanğıcı kimi qəbul ediblər. Bu təqvim 639-cu ildə Həzrət Əlinin təklifilə xəlifə Ömərin aşağıdakı fərmanı ilə qüvvəyə minib: "Ey müsəlmanlar! ...Rəsuli Əkrəmin hicrət etdiyi il İslam təqviminin birinci ili, səhabələrin ilk dəfə hicrət etdiyi Məhərrəm ayı isə ilin birinci ayı qəbul edildi". Hicri-qəməri təqviminin bir ili Şəms (Günəş) təqviminin bir ilindən 11 gün azdır. Buna görə də müsəlman gün və bayramları hər il miladi təqviminin müxtəlif günlərinə təsadüf edir.

**21 avqust** – Terrorizm Qurbanlarının Beynəlxalq Anım Günüdür. 2017-ci ilin dekabrında BMT Baş Assambleyası tərəfindən təsis olunub. Əsas məqsəd terror qurbanlarına və ondan zərərçəkən hər kəsə haqqını vermək, onları dəstəkləmək, hüquq və azadlıqlarının qorunması və tam şəkildə həyata keçirilməsinə təkan verməkdir.

**22 avqust** – Din və ya etiqad zəminində zorakılıq aktları qurbanlarını Beynəlxalq Anım Günüdür. 2019-cu ilin mayında BMT Baş Assambleyası tərəfindən təsis olunub. BMT öz qətnaməsində din və etiqad zəminində insanlara, onların əmlakına, mədəni dəyərlərinə, məbədlərinə, məktəblərinə və s. qarşı yönəlmiş istənilən zorakılıq aktını qınadığını bildirir. Bütün dövlət və qeyri-hökumət təşkilatlarını, dini konfessiyaların nümayəndələrini din və etiqad zəminində baş vermiş zorakılıq aktlarının qurbanlarını və ölən insanları yad etməyə çağırır.

**24 avqust** – 1572-ci ildə Parisdə katoliklər protestant-quqenotlara kütləvi divan tutmuşlar. Müqəddəs Varfolomey bayramına təsadüf etdiyindən, bu hadisə tarixə "Varfolomey gecəsi" kimi düşmüşdür. "Varfolomey gecəsi" ifadəsi bir çox xalqların dilinə daxil olaraq, mənfi çalar qazanmış və müqavimətə gücü çatmayan günahsız insanların kütləvi halda qətlə yetirilməsi mənasını almışdır. XVI-XVIII əsrlərdə kalvinizm tərəfdarı olan fransızlara quqenotlar deyilirdi.

**29 avqust** – Aşura - Məhərrəm ayının 10-cu günüdür. İmam Hüseynin, onun ailə üzvlərinin və tərəfdarlarının qətlə yetirildiyi gün olduğundan müsəlmanlar arasında matəm günü sayılır. İmam Hüseyn və onun silahdaşları hicri təqvimi ilə 61-ci ildə Kərbəlada şəhid edilmişlər.

CƏMİYYƏT və DİN

№ 04 (345) / İYUL 2020-ci il

# TİBBİN EMBLEMİ NECƏ YARANIB?



Tibb elminin emblemi piyaləyə sarılmış ilan hesab edilir. Onun nə vaxtdan və nə üçün emblem kimi qəbul edildiyi tarixçəsi maraqlıdır.

AZƏRTAC tibbi mənbələrə istinadla xəbər verir ki, simvolun tarixi eramızdan əvvəl 800-600-cü illərə gedib çıxır. Qədim yunan rəvayətinə görə, işıq tanrısı Appollonun oğlu olan Eskulap kentavr Xironun yanında həkimlik sənətinə yiyələnmiş və hətta ölü dirildən bacarıqlı həkim kimi tanınmışdır. Səma tanrısı Zevs Eskulapın bütün insanları ölümsüzlüyə qovuşdurmasından qorxaraq onu ildırımla vurub öldürmüşdür. O vaxtdan Eskulap həkimliyin rəmzi hesab edilir.

Əvvəllər ilanlar və piyalə ayrı-ayrı təsəvvür edilirdi. Bunlar əslində Eskulapın böyük qızı olan sağlamlıq ilahəsi Gigeyanın atributlarıdır. O, bir əlində ilan, digərində isə piyalə ilə təsvir edilib. Qızın qoluna sarılmış ilan onun qanı ilə qidalanır, lakin indiyədək də onun anlamı mübahisəlidir. Piyalədə müalicəvi xüsusiyyətlərə malik zəhər var, ilan isə həm müdriklik və biliyi, həm ölümsüzlük və xeyirxahlığı, həm də sağlamlıq və ehtiyatlılığı əks etdirir. İlan rəsmi müxtəlif ölkələrdə fərqli mənalar ifadə edib. Tək təsvir olunmuş ilan heç bir müsbət məna kəsb etmir, tək piyalə, badə rəsmi isə ölüm rəmzi hesab olunur. Lakin iki rəsm bir yerdə olduqda başqa məna verir, lakin ilan insanların şəfası üçün sarıldığı piyaləyə zəhərini axıdır.

Asiya və Afrika ölkələrində ilan həmişə müdriklik rəmzi sayılıb, çünki onlar ilanı əhliləşdirərək ondan müalicəvi təsirə malik zəhər əldə ediblər. İlan zəhəri isə təbabətdə qiymətli dərman kimi istifadə olunur.

# TƏRCÜMƏÇİ-MASKA

Yaponiyanın robotlar istehsalı ilə məşğul olan "Donut Robotiks" şirkəti sahibinin nitqini digər dillərə tərcümə edən ağıllı tərcüməçi-maska hazırlayıb.

"C-Face" adlanan həmin maska virusdan qorumaqla yanaşı, onun sahibinin dediklərini doqquz dilə - Koreya, Vyetnam, Çin, tay, fransız, ingilis, ispan, İndoneziya və yapon dillərinə tərcümə edir. "Bluetooth" vasitəsilə smartfona qoşulan maska plastikdən hazırlanıb.




"Donut Robotiks" şirkəti bir neçə ildir ki, "Haneda" beynəlxalq aeroportunun sifarişi ilə tərcüməçi robotlar üzərində işləyir. Maskanın hazırlanması zamanı məhz bu texnologiyadan istifadə olunub.

Maskanın kraudfandinq üzərindən toplanan vəsaitlə istehsal olunması planlaşdırılır. Layihə üçün artıq 260 min dollar vəsaitin toplandığı bildirilir. Yeni məhsulun cari ilin sentyabrından satışa çıxarılacağı gözlənilir.

Təqribən 40 dollar dəyərində olan maskanın əvvəlcə Yaponiyada, sonra Çin, Avropa ölkələri və ABŞ-da satışı nəzərdə tutulur.

Şirkətdən gələcəkdə maskanın yalnız danışığı deyil, həm də görüntünü tərcümə etməsi üçün işin davam etdiriləcəyini bildiriblər.

## Yadigar söz

Konfutsi

***Kamil insan gözəl söz söyləyə bilən insan deyil, söylədiyini edən və edə bildiyini söyləyən insandır.***

## Bakı və Abşeron üzrə namaz vaxtları ( İyul - 2020)

| Gün | Sübh azanı | Gün çıxır | Zöhr azanı | Əsr azanı | Axşam azanı | İşa |
|---|---|---|---|---|---|---|
| 1 | 04:02 | 05:37 | 12:47 | 17:48 | 20:11 | 21:24 |
| 2 | 04:03 | 05:38 | 12:47 | 17:48 | 20:10 | 21:23 |
| 3 | 04:04 | 05:39 | 12:47 | 17:47 | 20:09 | 21:21 |
| 4 | 04:06 | 05:40 | 12:47 | 17:46 | 20:08 | 21:20 |
| 5 | 04:07 | 05:41 | 12:46 | 17:46 | 20:07 | 21:18 |
| 6 | 04:09 | 05:42 | 12:46 | 17:45 | 20:06 | 21:17 |
| 7 | 04:10 | 05:43 | 12:46 | 17:44 | 20:04 | 21:15 |
| 8 | 04:11 | 05:44 | 12:46 | 17:43 | 20:03 | 21:13 |
| 9 | 04:13 | 05:45 | 12:46 | 17:43 | 20:02 | 21:12 |
| 10 | 04:14 | 05:46 | 12:46 | 17:42 | 20:00 | 21:10 |
| 11 | 04:15 | 05:47 | 12:46 | 17:41 | 19:59 | 21:09 |
| 12 | 04:17 | 05:48 | 12:46 | 17:40 | 19:58 | 21:07 |
| 13 | 04:18 | 05:49 | 12:45 | 17:39 | 19:56 | 21:05 |
| 14 | 04:19 | 05:50 | 12:45 | 17:38 | 19:55 | 21:04 |
| 15 | 04:21 | 05:51 | 12:45 | 17:37 | 19:54 | 21:02 |
| 16 | 04:22 | 05:52 | 12:45 | 17:36 | 19:52 | 21:00 |
| 17 | 04:23 | 05:53 | 12:45 | 17:36 | 19:51 | 20:59 |
| 18 | 04:25 | 05:54 | 12:44 | 17:35 | 19:49 | 20:57 |
| 19 | 04:26 | 05:55 | 12:44 | 17:34 | 19:48 | 20:55 |
| 20 | 04:27 | 05:56 | 12:44 | 17:33 | 19:46 | 20:53 |
| 21 | 04:29 | 05:57 | 12:44 | 17:31 | 19:45 | 20:52 |
| 22 | 04:30 | 05:58 | 12:43 | 17:30 | 19:43 | 20:50 |
| 23 | 04:31 | 05:59 | 12:43 | 17:29 | 19:42 | 20:48 |
| 24 | 04:33 | 06:00 | 12:43 | 17:28 | 19:40 | 20:46 |
| 25 | 04:34 | 06:00 | 12:43 | 17:27 | 19:39 | 20:44 |
| 26 | 04:35 | 06:01 | 12:42 | 17:26 | 19:37 | 20:43 |
| 27 | 04:36 | 06:02 | 12:42 | 17:25 | 19:36 | 20:41 |
| 28 | 04:38 | 06:03 | 12:42 | 17:24 | 19:34 | 20:39 |
| 29 | 04:39 | 06:04 | 12:41 | 17:23 | 19:33 | 20:37 |
| 30 | 04:40 | 06:05 | 12:41 | 17:21 | 19:31 | 20:35 |
| 31 | 04:41 | 06:06 | 12:41 | 17:20 | 19:29 | 20:34 |

**Bakı ilə digər şəhərlər arasındakı namaz vaxtı fərqləri *(dəqiqə):*** Sumqayıt **+1**, Qobustan, Siyəzən, Neftçala **+3**, Astara, Qusar, Hacıqabul, Şabran, Şirvan, Salyan, Xaçmaz **+4,** Ağsu, Quba, Lənkəran, Masallı, Biləsuvar **+5,** Cəlilabad, İsmayıllı, Kürdəmir, Saatlı, Sabirabad, Şamaxı, İmişli, Lerik **+6,** Qəbələ, Göyçay, Yardımlı, Ucar, Zərdab **+8,** Ağdam, Ağdaş, Ağcabədi, Beyləqan, Bərdə, Füzuli, Qax, Oğuz, Mingəçevir, Yevlax **+10**, Balakən, Cəbrayıl, Goranboy, Tərtər, Qubadlı, Şəki, Şuşa, Zəngilan **+13**, Gəncə, Daşkəsən, Göygöl, Laçın, Gədəbəy, Kəlbəcər, Ordubad, Tovuz, Şəmkir, Zaqatala **+15**, Qazax, Naxçıvan, Ağstafa, Babək, Culfa, Şahbuz, Şərur **+18**, Marneuli (Tiflis) **+20.**

** Təqvim AMEA-nın Şamaxı astrofizika rəsədxanası tərəfindən hazırlanmış cədvəl əsasında tərtib olunmuşdur.*

# KAİNATIN 13,8 MİLYARD YAŞI OLDUĞU TƏSDİQLƏNDİ

Astrofiziklərdən ibarət beynəlxalq qrup kainatın yaşını yenidən hesablayaraq 13,8 milyard il olduğunu təsdiqləyib.

Çilinin Atakama səhrasındakı dünyanın ən böyük teleskopu (ACT) vasitəsilə əldə edilmiş məlumatlar "Plank" kosmik rəsədxanasının standart modeli və hesablamaları ilə üst-üstə düşüb.

Qeyd edək ki, kainatın yaşı astrofiziklərin vahid fikrə sahib olmadıqları bir araşdırma mövzusudur. Lakin keçən il alimlər qalaktikaların hərəkətlərinə əsasən onun yaşının 2,3 milyard ildən aşağı olduğunu bildiriblər. Bu cür fərq yeni hesablama modelinin yaradılmasına və ya hesablamalarda səhvin olmasına işarə edirdi. "ACT"ın komandası ilk işığı tədqiq edərək kainatın yaşını təyin edib. Komandanın hesablaması "Plank" rəsədxanasının müşahidə nəticələri ilə eyni olub.

Beləliklə kainatın təqribi olaraq 13,77 milyard yaşı var. Əldə edilmiş məlumatlar həmçinin kainatın genişlənmə sürətini də anlamağa kömək edib. Qeyd edək ki, kainatın genişlənmə sürəti "Habbl sabiti" ilə ölçülüb. Məlumata əsasən 3,26 milyon işıq ili məsafəsində yerləşən obyekt bizdən saniyədə 67,6 kilometr sürətlə uzaqlaşır.

# BİR SALXIM ÜZÜM 12 MİN DOLLARA SATILDI

Yaponiyanın mərkəzi hissəsində cari ildə təşkil olunmuş ilk hərracda "Ruby Roman" ("Roma yaqutu") üzümünün bir salxımı 1,3 milyon yenə (təqribən 12 min dollar) satılıb.

Yapon dənizi sahilində yerləşən İşikava prefekturasında yetişdirilən həmin salxım hərrac vaxtı 100 salxım arasından seçilib. Bildirilir ki, cari hərracda təklif edilən qiymət ötənilki rekordu təqribən 900 dollar üstələyib.

Üzərində 30 ədəd üzüm və çəkisi təqribən 900 qram olan salxımı Yaponiyanın tanınmış restoranlarından birinin operatoru alıb. Operator şirkətin nümayəndəsinin bildirdiyinə görə, hərrac vaxtı alınmış salxımlar müştərilərə pulsuz paylanacaq.

Hərracda qoyulan şərtlərə görə, böyüklüyü və tərkibində şəkərin çoxluğu ilə seçilən "Ruby Roman" üzüm növünün hər giləsinin diametri 3 santimetrdən böyük və tərkibində şəkərin miqdarı 18 faizdən yuxarı olmalıdır.

Baş redaktor
Səyyad ARAN

Redaksiya şurası:
Şeyxülislam Allahşükür PAŞAZADƏ, Anar, Arxiyepiskop Aleksandr, Əflatun AMAŞOV, Gövhər BAXŞƏLİYEVA, Nizami CƏFƏROV, Raman DADAŞOV (Məsul katib).

Ünvan: AZ 1001, Bakı şəhəri, Şeyx Şamil küçəsi 5
Telefon: 505 78 16; 505 78 19
E-mail: redaksiya@scwra.gov.az

Azərbaycan Respublikası Dini Qurumlarla İş üzrə Dövlət Komitəsinin bölgələr üzrə müxbir məntəqələri:
Bakı şəhəri üzrə şöbə - (012) 433 86 51
Sumqayıt bölgəsi üzrə şöbə - (018) 654 00 40
Lənkəran bölgəsi üzrə şöbə - (025) 255 39 84
Masallı bölgəsi üzrə şöbə - (025) 215 51 59
Şirvan bölgəsi üzrə şöbə - (021) 215 21 30
Quba bölgəsi üzrə şöbə - (023) 335 22 70
Ucar bölgəsi üzrə şöbə - (020) 235 50 97
Yevlax bölgəsi üzrə şöbə - (022) 336 55 95
Ağcabədi bölgəsi üzrə şöbə - (021) 275 52 00
Zaqatala bölgəsi üzrə şöbə - (024) 225 32 23
Şəki bölgəsi üzrə şöbə - (024) 244 03 16
Şamaxı bölgəsi üzrə şöbə - (055) 291 40 80
Gəncə bölgəsi üzrə şöbə - (022) 256 91 14
Tovuz bölgəsi üzrə şöbə - (050) 499 07 53
İmişli bölgəsi üzrə şöbə - (021) 246 62 99

Azərbaycan Respublikasının Dini Qurumlarla İş üzrə Dövlət Komitəsində yığılıb səhifələnmiş, "Azərbaycan" nəşriyyatında ofset üsulu ilə çap edilmişdir.

*Əlyazmalara rəy verilmir və onlar geri qaytarılmır.*

Aylıq qəzet
Tiraj: 1200
Sifariş: 355

Qəzet 7 may 2009-cu ildən nəşr olunur. *Azərbaycan Respublikası Ədliyyə Nazirliyində 19 mart 2009-cu ildə qeydiyyatdan keçmişdir. Qeydiyyat nömrəsi:* 2894